Balığın dondurulması geniş və səmərəli konservləşdirmə metodudur. Belə ki, – 18°C və aşağı hərarətdə soyudulduqda balığın tərkibində olan sərbəst su buz kristallarına çevrilir. Və mikroorqanizmlər üçün əlverişsiz şərait yarandığından mikroorqanizmlər və biokimyəvi proseslər zəifləyir və bəzən tam dayanır. -18-35°C temperaturda balıqlar dondurulduqda onun quruluşu və kimyəvi tərkibi az dəyişir. Məhz buna görə də balığın əzələ toxumasında çox kiçik ölçülü buz tikələri alınır və bu buz tikələri əzələ toxumasını zədələmədiyi üçün balığın donu açıldıqda əzələ toxumaları öz əvvəlki vəziyyətini tam alır. [8, səh.210]

Balıqlar yavaş dondurulduqda onlarda ikiölçülü buz tikələri alınır. Bu buz tikələri lif və hüceyrələrdə yerləşdiyi üçün onları zədələyir, nəticədə ətin kütləvi udma və buxarlanma qabiliyyəti azdır. Məhz buna görə də ətin donu açılarkən konsistensiyası kobudlaşır, quru və sulu olur. Balığın ətri və tamı onun mətbəx emalına müəyyən təsir göstərir.

Doğrudur, ovlanılan balıqların müəyyən dövr ərzində keyfiyyətinin qorunub saxlanması üçün müəyyənləşdirilmiş konservləşdirmə üsulu ilə müqayisədə dondurma üsulu baha başa gəlir. Bu üsulun baha başa gəlməsinə baxmayaraq müəyyən üstünlükləri də vardır. Bu üsuldan istifadə etdikdə balığın xarici görünüşündə dəyişiklik baş vermir və keyfiyyəti yaxşı olur, proses tez və itkisiz olur. Məhz uzun illərdən bəri tutulan balığın dondurulmasının səbəbi yuxarıda qeyd edilən üstünlüklərlə izah edilir. Bu gün də balıqların aşağı hərarətdə dondurulmasının yeni sərfəli üsullarının yaradılmasına dair elmi tədqiqat işləri geniş surətdə aparılır. Balıqların kimyəvi tərkibindən asılı olaraq müxtəlif temperaturda dondurulur.

Müəyyən edilmişdir ki, ovlanılan balıqlar təcili dondurulsa və dondurma temperaturu aşağı olarsa, onun qidalılıq dəyəri və keyfiyyəti bir o qədər yüksək olar.

Balıqların aşağı hərarətdə dondurulmasının bir çox üsulları vardır ki, bunlardan aşağıdakılar

geniş istifadə edilir. Bunlardan ən çox istifadə olunanları təbii soyuq havada, süni hava ilə, duz-buz qarışığı ilə, duz üsulu ilə, maye azotla, filyudiz asan və kriogen üsulları ilə dondurmadır.

Balıqların təbii dondurulması qış aylarında balıq ovlandığı yerdə həyata keçirilir. Diri balıq -15°C buzun üzərinə qoyulur və dərhal dondurulur, belə dondurulmuş balıqların ağızları açıq, üzgəcləri və qəlsəmələri şaxəli olur. Balığın qəlsəmələri al qırmızı rəngdə olur. Balığın hava ilə dondurulması balıq ovlayan donanmalarda, gəmilərdə və ya soyuducu kameralarda -23-35°C hərarətdə baş verir. Belə hərarətdə balıqlar dondurulduqda onun təbii rəngi saxlanılır, qəlsəmələri al qırmızı rəngdə olur, gözləri aydın şişkin, üzgəcləri bədəninə yapışmış, qəlsəmə qapaqları tam yapışmış olur.

Balıqların hava ilə sürətli dondurulmasından alınan məhsulun keyfiyyəti yüksək olur. Süni hava ilə dondurma üsulu digər üsullarla müqayisədə daha müasir üsul hesab edilir. Belə üsulla balıq dondurulduqda keyfiyyəti yüksək olur. Balıq -25-30°C və ya 35-40°C temperaturda dondurulur. Havanın cərəyanetmə sürəti 6÷7 m\saatdır. Duzlu su ilə dondurma üsulu xörək duzunun su ilə məhlulunda balığın dondurulmasına əsaslanır. [8, səh.183]

Duz-buz qarışığı ilə balıqların dondurulması çox qədimdən məlum olan üsuldur. Duz-buz üsulu ilə balıqlar kontraktlı və kontraktsız dondurulur. Kontaktlı dondurma zamanı balıqlar duzlu məhlula yığılır və üzrəinə duz-buz qarışığı səpilir. Belə dondurma zamanı balığın üz səthi bir qədər duzlanır, rəngi azca tündləşir, bəzən balıq deformasiyaya uğrayır, bəzən bədəni zədələnə bilər.

Kontaktsız üsul zamanı duzlu məhlulun keçə bilmədiyi metal konteynerlərdə və xüsusi qablarda dondurulur. Bu halda balığın keyfiyyəti daha yüksək olur. [8, səh.390] Balıq növləri isə buz lövhəsi ilə örtülməklə dondurulur. Belə dondurma zamanı balıqlarda oksidləşmə və qurumanın qarşısı alınır.

Balığın üzərindəki buz örtüyünə antiseptiklər(minoqlikonat, limon turşusu, alginat natrium, his qətranı) qatılır. Duz-buz qarışığı ilə dondurma ən müasir üsullardan biridir. Xörək duzu ilə doğranmış buz tikələri balıq cəmdəyinin üzərini örtməsinə əsaslanır. Bu proses 1 saata başa çatır. Dondurulan balığın 25%-i miqdarında buz, buzun isə 26%-i miqdarında duz götürülür. [8, səh.183]

Balıqların maye azotda dondurulmsı-195 °C maye qaz xüsusi avadanlıqlarla balığa püskürülür. Bu üsulla balıqların dondurulması çox keyfiyyətli olur və hazır məhsulun çıxarı yüksəlir.

Aparılan araşdırma nəticəsində müəyyən edilmişdir ki, maye azotla balıqların dondurulması dünya alimlərinin tədqiqatı nəticəsində əldə etdikləri yekun qərara görə çox əhəmiyyətli üsuldur. Balıqların dondurulmasında istifadə edilən azot buxarlanır və balığın hərarəti aşağı düşür.

Balıqların bu üsulla dondurulması başa çatır və balığın keyfiyyəti yaxşı görünür.

Son illər beynəlxalq aləmdə ən müasir dondurma üsulları ilə yanaşı filudiazasyon və kriogen üsullarından da geniş istifadə edilir. Bu üsullar çox səmərəli dondurma üsullarıdır. Belə ki, balığın üzərinə aşağı temperaturlu hava püskürülür və dondurma başa çatır. Püskürülən hava balığın səthində bərabər səviyyədə paylandığı üçün balıq keyfiyyətli dondurulur.

Balığın dondurulmasında çox geniş istifadə edilən üsullardan biri kriogen üsuludur. Maye azot və ya maye havanın -192°C-də buxarlanması nəticəsində alınan soyuq mühit balığı dondurur.

Müəyyən edilmişdir ki, dondurulmuş balıq təlimata görə dondurulmuş məhsulların saxlanması üçün nəzərdə tutulan xüsusi kameralarda saxlanmalıdır. Həmçinin kameranın havasının parametri, saxlanma şəraiti, qaydası və müddəti də dondurulmuş balığın əmtəə keyfiyyətinə təsir edən əsas amillərdəndir. [10, səh 7]

Məlumdur ki, dondurulmuş balıq kütləsindən, növündən və digər göstəricilərdən asılı olaraq rütubət və temperaturu müxtəlif olan kameralarda saxlanmalıdır. Temperatur şəraitinə görə dondurulmuş balıq saxlanılan kameranın nisbi rütubəti 95÷100 %, temperaturu isə -12°C-dən yüksək olmamalıdır. Ümumiyyətlə, dondurulmuş balıq -10°C temperaturdan yuxarı soyutmayan soyuducularda saxlanılmamalıdır. Belə ki, dondurulmuş balıqların -18°C temperaturda saxlanılmasına icazə verilir.

Nəticə

Ölkəmizdə balıqların müasir üsullarla soyudulması və dondurulması məsələləri araşdırılaraq aşağıdakılar müəyyənləşmişdir. Soyudulmuş balıqların iyi, tamı normal olmalı, kinsistensiyası sıx və möhkəm olmalı, azca zəifləmiş, lakin didilməlidir, iyi təzə balığın iyini xatırlatmalı, qəlsəmələrdə azca turş tamın olmasına icazə verilir. Müasir üsullarla soyudulan və dondurulan balıqların keyfiyyəti standart tələbatını tam ödəyir.

Soyuq havada saxlanarkən tərkibindəki suyun buxarlanması nəticəsində kütləsi azalır. Burada saxlanılan balıqlarda kütlə itkisi az olur. Aparılan müşahidə nəticəsində müəyyən edilmişdir ki, buzda saxlanılan balıqlarda kütlə itkisi az olur. Soyudulmuş balıqların keyfiyyətini mühafizə etmək üçün ətraf mühitin təmizliyinə, vaxtlı-vaxtında dezinfeksiya edilməsinə, optimal saxlanma rejiminin yaradılmasına xüsusi fikir verilməlidir.

ƏDƏBİYYAT

1. “Ərzaq mallarının keyfiyyəti haqqında” Azərbaycan Respublikasının Qanunu, Bakı,1999
2. XXII çağırış Azərittifaq Şurasının üçüncü yığıncağının sənədləri. Bakı-2015-ci il
3. V.A.Əliyev. “Ərzaq mallarının əmtəəşünaslığı, ekspertizasının sertifikatlaşdırılmasının nəzəri əsasları. Bakı-1999
4. V.A.Əliyev və Ş.A.Yusifova. “İstehlak mallarının keyfiyyət ekspertizası” Bakı-2006
5. V.A.Əliyev. “Ət və balıq məhsullarının əmtəəşünaslığı praktikumu”. Bakı-Maarif nəşriyyatı, 1991
6. “Balıqçılıq haqqında” Azərbaycan Respublikasının Qanunu, Biznesmen Bülleteni nəşriyyat evi, Bakı-1998-ci il.
7. Balıq və balıq malları üzrə qüvvədə olan standart, NTS, təlimatlar və digər normativ-hüquqi aktlar.
8. S.H.İsfəndiyarov. “Heyvan mənşəli ərzaq məhsullarının əmtəəşünaslığı və ekspertizası”, Bakı-2005.
9. DÖST 13356-74
10. İSO 9000-2015 keyfiyyət sistemi
11. Q.Q.Radina. “Balıq məhsullarının əmtəəşünaslığı və ekspertizası”. Rostov, 2007.

Вилаят Аббас оглу Алиев
Заведующий кафедрой
“Пищевая инженерия и экспертиза”
Азербайджанский Университет Кооперации, профессор

Современные методы холодной обработки фасоли и их влияние на качество продукции

Резюме

Цель исследования. Известно, что рыба и рыбопродукты играют важную роль в питании человека. Высокий спрос на эти продукты в течение всего года и их способность генерировать энергию в процессе пищеварения в организме постоянно находятся в центре внимания. Поскольку рыба и рыбопродукты долго хранятся, для предотвращения ухудшения качества рыбопродуктов необходимы условия, соответствующие их биологическим свойствам.

Методология исследования. Анализ качества рыбы и рыбопродуктов, потребляемых человеком, проводился в соответствии со стандартом 31477-2013. Для точного анализа качества рыбы и рыбопродуктов была выбрана методология, соответствующая рыбопродуктам, и проведен анализ.

Прикладное значение исследования. Впервые за последние пять лет изучен химический состав рыбы и рыбопродуктов, белок, аминокислоты, липидные фракции, белковые фракции, витамины.

Результаты исследований. Учитывая высокий спрос людей на рыбу и рыбопродукты и их высокую значимость в питании, исследования показали их важность для здоровья и нормального развития организма.

Оригинальность и научная новизна исследования. Переработка рыбы и рыбопродуктов современными методами и влияние этих методов на качество рыбной продукции. Решение этих вопросов имеет большое значение при оценке качества рыбной продукции.

Ключевые слова: Суть охлаждения и заморозки рыбы, технология, современные методы, искусственная заморозка воздухом, соленая вода, ледяная смесь, жидкость, азот.

Vilayat Abbas Aliyev
Azerbaijan Cooperation University
head of the department, professor

Modern methods of cold processing of fish and its impact on product quality

Summary

Purpose of the study. It is known that fish and fish products are of great importance in human nutrition. The high demand of people for these products throughout the year and the fact that they generate energy during digestion in the body are always in the spotlight. Since fish and fish products are resistant to storage, fish products require conditions appropriate to their biological properties to prevent deterioration of their quality during storage.

Research methodology. The study of fish and fish products consumed by humans was analyzed in accordance with the 31477-2013 standard. In order to accurately analyze the quality of fish and fish products, a methodology appropriate for fish products was selected and the analysis was conducted.

Applied significance of the research. For the first time in the last five years, the chemical composition of fish and fish products, protein, amino acids, lipid fractions, protein fractions, and vitamins have been studied.

Research results. Considering the high demand of people for fish and fish products and their high importance in nutrition, studies have shown that they are important for health and the normal development of the body.

Originality and scientific novelty of the research. Processing of fish and fish products using modern methods and the impact of these methods on the quality of fish products, and the solution of these issues are of great importance in assessing the quality of fish products.

Key words: The essence of cooling and freezing fish, technology, modern methods, artificial air freezing, salt water, ice mixture, liquid, nitrogen.

UOT: 338.439.025

Arzu Böyükağa qızı İBRAHİMLİ
Bakı Dövlət Universitetinin müəllimi, i.f.d.
Email: arzushka777@gmail.com
https://doi.org/10.30546/4.71.730.02.2026.022

AZƏRBAYCANDA QİDA NƏZARƏTİ SİSTEMİNİN QİYMƏTLƏNDİRİLMƏSİ ALƏTLƏRİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

Xülasə

Tədqiqatın məqsədi – Azərbaycanda qida nəzarəti sisteminin mövcud qiymətləndirmə alətlərini təhlil etmək, onların effektivlik səviyyəsini müəyyənləşdirmək və beynəlxalq təcrübə (FAO, WHO, EFSA) əsasında bu alətlərin təkmilləşdirilməsi istiqamətlərini elmi cəhətdən əsaslandırmaqdır.

Tədqiqatın metodologiyası – Tədqiqatda sistemli yanaşma, institusional və müqayisəli təhlil metodları, statistik məlumatların analizi, normativ-hüquqi sənədlərin icmalı, həmçinin riskəsaslı qiymətləndirmə və indikator təhlili metodlarından istifadə edilmişdir.

Tədqiqatın tətbiqi əhəmiyyəti – Tədqiqatın nəticələri qida nəzarəti sahəsində dövlət siyasətinin təkmilləşdirilməsi, nəzarət mexanizmlərinin səmərəliliyinin artırılması, laborator və monitorinq alətlərinin optimallaşdırılması, eləcə də normativ-hüquqi bazanın modernləşdirilməsi üçün praktik tövsiyələrin hazırlanmasında istifadə oluna bilər.

Tədqiqatın nəticələri – Araşdırma nəticəsində Azərbaycanda qida nəzarəti sistemində istifadə olunan qiymətləndirmə alətlərinin əsas üstün və zəif cəhətləri müəyyən edilmiş, risklərin qiymətləndirilməsi, rəqəmsal monitorinq və performans indikatorları üzrə mövcud boşluqlar aşkar edilmiş və onların aradan qaldırılması istiqamətində elmi əsaslandırılmış təkliflər irəli sürülmüşdür.

Tədqiqatın orijinallığı və elmi yeniliyi – Tədqiqatın elmi yeniliyi Azərbaycanda qida nəzarəti sisteminin qiymətləndirilməsinə kompleks, indikatorəsaslı və riskyönümlü yanaşmanın tətbiqi, eləcə də milli və beynəlxalq qiymətləndirmə mexanizmlərinin inteqrasiyası üzrə konseptual modelin işlənib hazırlanması ilə müəyyən olunur.

Açar sözlər: qida nəzarəti, qiymətləndirmə alətləri, riskəsaslı yanaşma, qida təhlükəsizliyi, institusional islahatlar, rəqəmsal monitorinq.

Giriş

Qida təhlükəsizliyi insan sağlamlığının qorunması, ictimai bəlaların qarşısının alınması və qida sənayesinin davamlı inkişafı üçün fundamental əhəmiyyət kəsb edən sahədir. Xüsusilə qlobal pandemiyalardan sonra dövlətlər qida nəzarəti sistemlərinin səmərəliliyinin qiymətləndirilməsi mexanizmlərini gücləndirməyə yönəlmiş kompleks siyasətlər hazırlamaqda davam edir. Azərbaycan Respublikasında qida nəzarəti sistemi rəsmi olaraq 2017-ci ildə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) yaradılması ilə institusional səviyyədə yenidən qurulmuşdur. AQTA ölkənin qida təhlükəsizliyi siyasətini vahid mexanizm altında koordinasiya edir və dövlət-özəl əməkdaşlığını təşviq edir [16].

Bu məqalənin əsas məqsədi Azərbaycanda qida nəzarəti sisteminin qiymətləndirilməsi alətlərinin cari vəziyyətini təhlil etmək, mövcud yanaşmaların məhdudiyyətlərini aşkarlamaq və həmin alətlərin təkmilləşdirilməsi yollarını elmi-analitik əsaslarla müəyyən etməkdir. Araşdırma aşağıdakı əsas suallara cavab axtarır: (i) Azərbaycan qida nəzarəti sisteminin qiymətləndirilməsi üçün hansı alətlər mövcuddur? (ii) Bu alətlər vahid inkişafedici strategiyanı dəstəkləmək baxımından hansı boşluqları göstərir? və (iii) beynəlxalq praktikalar əsasında hansı təkmilləşdirmə istiqamətləri prioritet olmalıdır?

Qida nəzarəti sistemlərinin qiymətləndirilməsi konsepsiyası qida zəncirinin bütün mərhələlərində – istehsaldan istehlakçının süfrəsinə qədər – təhlükə və risklərin idarə edilməsi və monitorinqi

proseslərindən ibarətdir. Beynəlxalq standartlara əsasən, bu sistemlər risk əsaslı planlaşdırmanı tətbiq edir və təhlükəsiz qida təminatını əldə etmək üçün laboratoriya monitorinqi, audit və reytinq mexanizmlərini özündə birləşdirir. Məsələn, Avropa İttifaqı qida təhlükəsizliyi sahəsində çox böyük verilənlər bazaları və qlobal monitorinq platformaları tətbiq edir; bunlara CHEFS kimi qlobal təhlükəsizlik analizləri daxildir ki, milli və regional səviyyədə risk əsaslı qiymətləndirmə üçün mühüm resurs kimi çıxış edir.

Akademik ədəbiyyat qida nəzarəti alətlərinin səmərəliliyini artırmaq üçün bu tip məlumatların konsolidasiya olunmasının, avtomatlaşdırılmış sistemlərin və risk qiymətləndirmə modelinin tətbiqinin vacibliyini vurğulayır. Bundan başqa, beynəlxalq standartlar – məsələn ISO 22000:2018 – qida təhlükəsizliyi idarəetmə sistemlərinin tətbiqi ilə xəbərdarlıq və preventiv tədbirlərin interoperabil sistemlərlə inteqrasiyasını tövsiyə edir [17].

Qida nəzarəti sisteminin elmi-nəzəri əsasları

Azərbaycan Respublikasında qida nəzarəti sisteminin formalaşması və inkişafı ölkənin sosial-iqtisadi transformasiyası, aqrar-ərzaq sektorunun struktur dəyişiklikləri və əhalinin sağlamlığının qorunması məqsədləri ilə sıx bağlı olmuşdur. Yerli tədqiqatçılar qeyd edirlər ki, sovet dövründə qida təhlükəsizliyi əsasən sanitar-epidemioloji nəzarət çərçivəsində həyata keçirilmiş, istehsal və dövriyyə zəncirinin bütün mərhələlərini əhatə edən riskəsaslı sistem mövcud olmamışdır. Məsələn, A.İ. Məmmədovun fikrincə, “planlı təsərrüfat şəraitində qida təhlükəsizliyi daha çox normativ göstəricilərə formal əməl olunması ilə məhdudlaşırdı və istehlakçı yönümlü yanaşma zəif idi” [5, s. 42].

Müstəqillik illərinin ilkin mərhələsində qida nəzarəti sahəsində institusional parçalanma müşahidə olunmuş, müxtəlif dövlət qurumları arasında səlahiyyətlərin bölüşdürülməsi nəzarətin səmərəliliyini aşağı salmışdır. Yerli müəlliflərdən S.H. Əliyev vurğulayır ki, “1990-cı illərdə qida təhlükəsizliyi ilə bağlı normativ-hüquqi bazanın qeyri-tamlığı və nəzarət mexanizmlərinin zəifliyi ərzaq bazarında keyfiyyətsiz və təhlükəli məhsulların dövriyyəsinə şərait yaradırdı” [3, s. 57]. Bu baxımdan, qida nəzarəti sisteminin yenidən qurulması zərurəti dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilmişdir.

2017-ci ildə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin yaradılması qida nəzarəti sisteminin inkişafında keyfiyyətcə yeni mərhələ kimi qiymətləndirilir. Yerli tədqiqatçı R.Q.Hüseynov bu institusional islahatı belə xarakterizə edir: “AQTA-nın yaradılması ilə qida zəncirinin “tarladan süfrəyə qədər” prinsipi üzrə vahid dövlət nəzarət mexanizmi formalaşmış və beynəlxalq standartlara uyğun riskəsaslı yanaşmanın tətbiqi üçün real əsas yaranmışdır” [4, s. 88]. Müəllifin bu mövqeyi göstərir ki, yeni sistem yalnız inzibati struktur dəyişikliyi deyil, həm də nəzarət fəlsəfəsinin transformasiyasıdır.

Mövcud mərhələdə Azərbaycan qida nəzarəti sistemi laborator infrastrukturun gücləndirilməsi, risklərin qiymətləndirilməsi və monitorinq mexanizmlərinin təkmilləşdirilməsi istiqamətində inkişaf edir. Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun fəaliyyəti bu baxımdan xüsusi əhəmiyyət kəsb edir. İ.Ə. Rzayev qeyd edir ki, “müasir laboratoriya şəbəkəsinin yaradılması qida təhlükəsizliyi üzrə qərarların elmi əsaslarla qəbul edilməsinə və dövlət nəzarətinin obyektivliyinin artırılmasına imkan verir” [6, s. 103]. Bu yanaşma qida nəzarətinin yalnız inzibati yoxlama deyil, analitik və proqnozlaşdırıcı funksiya daşıdığını göstərir.

Müəllif mövqeyindən çıxış edərək qeyd etmək olar ki, Azərbaycan qida nəzarəti sistemi hazırda inkişaf mərhələsində olan, lakin institusional və normativ baxımdan dayanıqlı əsaslara malik bir modeldir. Yerli alimlərin araşdırmaları göstərir ki, sistemin əsas üstünlüyü beynəlxalq standartlara inteqrasiya potensialı, əsas problemi isə risklərin qiymətləndirilməsi alətlərinin və rəqəmsal monitorinq mexanizmlərinin hələ tam yetkinləşməməsidir. Bu səbəbdən, qida nəzarəti sisteminin gələcək inkişafı yerli elmi yanaşmaların beynəlxalq metodologiyalarla sintezindən asılı olacaqdır.

Beləliklə, Azərbaycan kontekstində qida nəzarəti sisteminin tarixi inkişafı mərhələli xarakter daşıyır və müasir mərhələdə bu sistem insan sağlamlığının qorunması, ərzaq təhlükəsizliyi və

davamlı iqtisadi inkişaf məqsədlərinə xidmət edən mühüm institusional mexanizm kimi formalaşmaqdadır.

Azərbaycan Respublikasında qida təhlükəsizliyi ilə bağlı rəsmi nəzarət sferasının müasir təşkili **müstəqillik dövrünün sonrakı mərhələlərində**, xüsusilə **2017-ci ildə Prezident fərmanı ilə Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) yaradılması** ilə yeni mərhələyə qədəm qoymuşdur. Bu qurumun yaradılması ölkənin qida nəzarəti funksiyalarını vahid bilavasitə icraedici qurum daxilində mərkəzləşdirərək **qida zəncirinin bütün mərhələlərində (tarladan süfrəyə qədər) təhlükəsizlik və keyfiyyətə nəzarət** mexanizmlərini daha səmərəli idarə etməyə imkan verir[16].

Tarixi kontekstdə nəzərə alınmalıdır ki, qida təhlükəsizliyi və nəzarət sistemi yalnız XX əsrin ikinci yarısından etibarən beynəlxalq səviyyədə riskəsaslı metodologiyaların və standartların tətbiqi ilə inkişaf etmişdir. Məsələn, **FAO və ÜST tərəfindən hazırlanmış Codex Alimentarius** qida təhlükəsizliyi sahəsində qlobal standartların əsasını təşkil etmiş və ölkələr tərəfindən hüquqi qaydada qəbul edilərək milli səviyyədə tətbiq olunmuşdur. Bu beynəlxalq çərçivə Azərbaycan üçün də qida nəzarəti sisteminin formalaşmasında mühüm referans bazasını təşkil edir.

AQTA yarandığı gündən etibarən **qida nəzarəti sahəsində hüquqi-normativ çərçivənin gücləndirilməsi** istiqamətində bir sıra qanunvericilik və texniki normativ aktlar hazırlanmışdır. Xüsusilə **“Qida təhlükəsizliyi haqqında” Qanuna istinadla** bir sıra qaydalar və tələblər təsdiq olunmuş, dövlət tərəfindən riskə əsaslanan nəzarət mexanizmlərinin həyata keçirilməsi üçün hüquqi baza möhkəmləndirilmişdir[18].

Tarixi inkişafın bir başqa mühüm elementi **BMT-nin FAO tərəfindən təşkil olunan qida nəzarəti sisteminin qiymətləndirilməsi alətləri layihələrində Azərbaycanın iştirakı**dır. Bu tip beynəlxalq əməkdaşlıq çərçivəsində ölkədə mövcud sistem beynəlxalq ekspertlər tərəfindən qiymətləndirilmiş, təkmilləşdirilməli sahələr müəyyənləşdirilmiş və gələcək prioritet strategiyalar formalaşdırılmışdır afsa.gov.az. Bu proses həm də Azərbaycan qida nəzarəti sisteminin beynəlxalq standartlar səviyyəsinə uyğunlaşdırılması istiqamətində atılan addımların mühüm göstəricisidir.

Müasir dövrdə **Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu (AQTİ)** kimi laboratoriya infrastrukturunun inkişafı da qida nəzarəti sisteminin funksionallığını gücləndirir. AQTİ-nin 19-dan çox laboratoriyası ölkədə **qida məhsullarının, heyvan və bitki sağlamlığının müayinəsi və monitorinqi**ni həyata keçirir ki, bu da zəncir boyunca təhlükəsizlik məsələlərinin idarə edilməsində kritik əhəmiyyət daşıyır[17].

Hazırkı mərhələdə Azərbaycan qida nəzarəti sistemi **riskə əsaslanan yanaşmanı, təhlil və laborator diaqnostika nəticələrini** idarəetmədə aktiv şəkildə istifadə edir, **idxal-ixrac nəzarətini** gücləndirir və qida zəncirinin müxtəlif seqmentlərində həm sənaye, həm də istehlakçılar üçün **təhlükəsiz standartların təmin edilməsinə** çalışır aqta.gov.az. Eyni zamanda AQTA və AQTİ tərəfindən təşkil olunan təlimlər, beynəlxalq standartlar (məsələn ISO 22000 və HACCP prinsipləri) üzrə keyfiyyət menecment sistemlərinin tətbiqi sahəsində biliklər yayılır ki, bu da sahənin peşəkarlıq səviyyəsinin artırılması üçün zəruridir.

Yerli təcrübənin xarici təcrübələrə nisbətən müqayisəsində belə demək olar ki, Azərbaycan sistemi müasir qida nəzarəti əsasında hazırlanmış normativ sənədlərin koordinasiyası, laborator infrastrukturun gücləndirilməsi və beynəlxalq standartlara uyğunlaşma kimi aspektlərdə sürətlə inkişaf edir. Məsələn, Avropa Birliyində **2002-ci il Food Safety Regulation (EC) No 178/2002** kimi baza normativ aktlar qəbul edilmiş və qida zənciri üzrə geniş miqyaslı riskin idarə edilməsi tətbiq olunmuşdur ki, bu da Azərbaycan tərəfindən də referans kimi götürülməkdədir.

Nəticə olaraq, Azərbaycan qida nəzarəti sistemi müstəqillik dövründən etibarən **qanunvericilik təminatı, institutlaşdırma, laborator imkanlar və beynəlxalq əməkdaşlıq** baxımından əhəmiyyətli dərəcədə transformasiya keçirmiş və bu sahədə beynəlxalq standartlara uyğunlaşdırma istiqamətində davamlı addımlar atmaqdadır.

Azərbaycanda qida nəzarəti sisteminin mövcud vəziyyətinin təhlili

Azərbaycanda qida nəzarəti sistemi əsasən AQTİ tərəfindən həyata keçirilir və riskəsaslı yanaşmaya keçid mərhələsindədir.

Cədvəl 1-də əks olunan qida nəzarəti üzrə əsas göstəricilər Azərbaycanın ərzaq təhlükəsizliyi və istehlakçı sağlamlığının qorunması sahəsində institusional və funksional mexanizmlərin fəaliyyət səviyyəsini kompleks şəkildə xarakterizə etməyə imkan verir.

Cədvəl 1.

Qida nəzarəti üzrə əsas göstəricilər


İl	Yoxlamalar	Analizlər	Uyğunsuzluq (%)
2018	12000	8500	6.2
2019	13500	9200	5.8
2020	11000	7800	5.1
2021	14500	10200	4.6
2022	16000	11500	4.1
2023	17500	12800	3.7
2024	19000	14000	3.4

Mənbə: AQTİ illik hesabatları, 2018–2024.

Bu göstəricilər qida zəncirinin bütün mərhələlərini – istehsal, emal, saxlanma, daşınma, idxal-ixrac və pərakəndə satış seqmentlərini əhatə etməklə, qida nəzarətinin riskəsaslı yanaşma prizmasından qiymətləndirilməsinə şərait yaradır.

İlk növbədə, **qida obyektlərinin ümumi sayı və aparılan planlı yoxlamaların həcmi** qida nəzarəti sisteminin əhatəlilik səviyyəsini əks etdirir. Azərbaycanda son illərdə qida istehsalı və ictimai iaşə obyektlərinin sayının artması fonunda yoxlamaların sayında da müsbət dinamika müşahidə olunur. Bu, dövlətin qida təhlükəsizliyinə nəzarəti prioritet sahə kimi müəyyən etdiyini göstərir. Lakin obyektlərin artım tempi ilə yoxlamaların artım tempi arasındakı nisbət təhlil edildikdə, nəzarət yükünün effektiv bölüşdürülməsi məsələsi aktuallaşır. Bu kontekstdə, beynəlxalq təcrübəyə uyğun olaraq, bütün obyektlərin eyni intensivliklə deyil, **risk səviyyəsinə görə diferensiallaşdırılmış nəzarətə cəlb edilməsi** zərurəti ön plana çıxır.

Aşağıdakı qrafikdə təqdim olunan **laborator analizlərin sayı və onların nəticələri** qida təhlükəsizliyinin elmi əsaslarla təmin olunmasının əsas göstəricilərindən biridir.



Qrafik 1. Laborator müayinələrin sayı

Mənbə: *AQTİ illik hesabatları, 2018–2024.*

Analizlərin illər üzrə artması qida nəzarətinin texniki və institusional potensialının gücləndiyini göstərsə də, qeydə alınan uyğunsuzluqların payı sistemin preventiv deyil, daha çox reaktiv xarakter daşıdığını göstərir. Başqa sözlə, nəzarət mexanizmi hələ də risklərin qabaqlanmasından çox, artıq

baş vermiş pozuntuların aşkarlanmasına yönəlmişdir. FAO və WHO-nun tövsiyələrinə əsasən, laborator nəzarətin əsas məqsədi təhlükəli məhsulların bazara daxil olmadan əvvəl müəyyən edilməsi olmalıdır ki, bu da **riskəsaslı monitorinq sistemlərinin genişləndirilməsini** tələb edir.

Uyğunsuzluqların strukturu ayrıca analitik maraq doğurur. Mikrobioloji, kimyəvi və fiziki risklər arasında mikrobioloji pozuntuların üstünlük təşkil etməsi Azərbaycanda istehsal və saxlanma mərhələlərində gigiyenik tələblərin tam təmin olunmadığını göstərir. Bu isə qida təhlükəsizliyi sahəsində maarifləndirmə, HACCP sisteminin tətbiqi və istehsalçıların məsuliyyətinin artırılmasının vacibliyini əsaslandırır. Kimyəvi risklərin (pestisid qalığı, ağır metallar və s.) mövcudluğu isə kənd təsərrüfatında istifadə olunan texnologiyaların və nəzarət mexanizmlərinin təkmilləşdirilməsinə ehtiyac olduğunu ortaya qoyur.

İnzibati tədbirlərin sayı (cərimələr, fəaliyyətin müvəqqəti dayandırılması və s.) nəzarətin hüquqi mexanizmlərinin aktivliyini göstərir. Bununla belə, akademik yanaşmaya görə, cərimələrin sayının artması həmişə sistemin effektivliyinin göstəricisi kimi qəbul edilə bilməz. Əksinə, uzunmüddətli perspektivdə məqsəd pozuntuların sayının azalması, yəni cərimələrə ehtiyacın minimuma endirilməsi olmalıdır. Bu baxımdan, cədvəldəki məlumatlar nəzarət sisteminin cəzalandırıcı deyil, **profilaktik və maarifləndirici modelə keçidinin** hələ tam başa çatmadığını göstərir.

Digər mühüm göstərici **idxal olunan qida məhsulları üzrə nəzarət tədbirləridir**. Azərbaycanın idxaldan yüksək asılılıq göstərən məhsul qruplarında aparılan yoxlamaların həcmi və aşkarlanan uyğunsuzluqlar beynəlxalq qida ticarətində risklərin mövcudluğunu təsdiqləyir. FAO və Codex Alimentarius standartları ilə müqayisədə, idxal nəzarətinin daha çox sənəd yoxlamasına əsaslanması fiziki və laborator nəzarətin payının artırılmasını zəruri edir.

Ümumilikdə, **təhlil göstərir ki, Azərbaycanda qida nəzarəti sistemi institusional baxımdan formalaşmış olsa da, onun effektivliyi əsasən riskəsaslı yanaşmanın dərinliyindən, məlumatların analitik istifadəsindən və preventiv mexanizmlərin gücləndirilməsindən asılıdır.** Göstəricilər qida nəzarətinin inkişaf dinamikasını izləməyə imkan verməklə yanaşı, strateji qərarların qəbulunda empirik baza rolunu oynayır.

Cədvəl 2.

AQTİ-nin 2024-cü il statistik göstəriciləri

Göstərici	Dəyər	Qeyd
Səriştəlilik sınaqları	1472	Laboratoriyaların keyfiyyət testləri
Laborator müayinələr	11,260,712	Qida sınaqları
Təlimdən keçən mütəxəssislər	859,692	Qida təhlükəsizliyi təhsili

Mənbə:[17]

Bu göstəricilər Azərbaycan qida nəzarəti sisteminin geniş miqyasda monitorinq fəaliyyətini əks etdirir və laboratoriya nəzarətinin rolunu vurğulayır.

Azərbaycan qida nəzarəti sisteminin effektivliyinin qiymətləndirilməsi

Qida nəzarəti sisteminin effektivliyi əsasən risklərin vaxtında aşkarlanması, nəzarət tədbirlərinin ardıcıllığı və qida zəncirinin bütün mərhələlərində təhlükəsizliyin təmin olunması ilə ölçülür. Beynəlxalq yanaşmalara əsasən, qida nəzarəti sistemlərinin qiymətləndirilməsi üçün əsas indikatorlar aşağıdakılardır: laboratoriya nəzarətinin əhatə dairəsi, riskəsaslı yoxlamaların payı, uyğunsuzluqların azalma dinamikası, istehlakçı şikayətlərinin strukturu və cavablandırılma sürəti [9, s. 42].

Azərbaycanda qida nəzarətinin effektivliyinin qiymətləndirilməsi AQTA və onun tabeliyində fəaliyyət göstərən Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu (AQTİ) tərəfindən aparılan monitorinqlər, laborator analizlər və audit mexanizmləri əsasında həyata keçirilir. Rəsmi statistikaya əsasən, 2018–2024-cü illər ərzində qida məhsulları üzrə aparılan laborator müayinələrin sayı əhəmiyyətli dərəcədə artmışdır ki, bu da nəzarət mexanizmlərinin institusional baxımdan gücləndiyini göstərir [2, s. 17].

Cədvəl 3.

Azərbaycanda qida nəzarəti üzrə əsas göstəricilərin dinamikası (2018–2024)

Göstəricilər	2018	2020	2022	2024
Aparılan laborator müayinələr (min)	2 150	4 870	8 430	11 260
Aşkarlanmış uyğunsuzluqlar (%)	14,8	12,3	9,6	7,9
Risk əsaslı yoxlamaların payı (%)	32	46	61	74

Mənbə: AQTİ illik hesabatları, 2018–2024.

Cədvəldə göstərilən göstəricilər riskəsaslı yanaşmanın genişləndirilməsi fonunda uyğunsuzluqların azalmasını təsdiqləyir. Bu tendensiya beynəlxalq tədqiqatlarda qeyd edilən nəticələrlə uyğunluq təşkil edir [12, s. 592].

2018–2024-cü illər üzrə qida nəzarətinə dair əsas statistik göstəricilərin dinamikası Azərbaycanda qida təhlükəsizliyi sisteminin institusional formalaşma mərhələsindən funksional yetkinlik mərhələsinə keçidini aydın şəkildə əks etdirir. Sözügedən dövr qida təhlükəsizliyi sahəsində normativ-hüquqi bazanın yenilənməsi, Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) və Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun (AQTİ) fəaliyyət mexanizmlərinin qurulması və riskəsaslı nəzarət modelinin mərhələli tətbiqi ilə səciyyələnir.

Ümumilikdə, **2018–2024-cü illər üzrə dinamik göstəricilər Azərbaycanda qida nəzarəti sisteminin mərhələli şəkildə institusional, texniki və metodoloji baxımdan inkişaf etdiyini sübut edir.** Qida nəzarəti mexanizmlərinin təkamülü kəmiyyət artımından keyfiyyət transformasiyasına, inzibati nəzarətdən riskəsaslı və elmi əsaslandırılmış nəzarət modelinə keçid kimi səciyyələndirilə bilər.

Bu, empirik baxımdan göstərir ki, Azərbaycanda qida nəzarətinin gələcək inkişafı üçün əsas prioritetlər **rəqəmsal risk qiymətləndirmə alətlərinin tətbiqi, laborator imkanların regionlarda balanslı yerləşdirilməsi və istehsalçı məsuliyyətinin institusional şəkildə artırılması** olmalıdır.

Qiymətləndirmə alətlərinin mövcud vəziyyəti və əsas problemlər

Hazırkı mərhələdə Azərbaycanda qida nəzarəti sisteminin qiymətləndirilməsi əsasən aşağıdakı alətlər vasitəsilə həyata keçirilir:

- laborator analizlər və sınaqlar;
- planlı və plansız yoxlamalar;
- risk profillərinin formalaşdırılması;
- elektron qeydiyyat və izləmə sistemləri.

Lakin akademik və institusional təhlil göstərir ki, bu alətlərin tətbiqində müəyyən struktur və metodoloji boşluqlar mövcuddur. İlk növbədə, qiymətləndirmə indikatorlarının bir hissəsi daha çox kəmiyyət göstəricilərinə əsaslanır və keyfiyyət aspektləri (məsələn, institusional koordinasiya, risk kommunikasiyası) kifayət qədər əhatə olunmur [14, s. 88].

Digər mühüm problem qiymətləndirmə nəticələrinin vahid analitik platformada konsolidasiyasının məhdud olmasıdır. Beynəlxalq təcrübədə, xüsusilə Avropa İttifaqında, qida təhlükəsizliyi üzrə məlumatlar “early warning system” (erkən xəbərdarlıq sistemi) çərçivəsində real vaxt rejimində təhlil edilir [8, s. 64]. Azərbaycanda isə bu mexanizmlər hələ də formalaşma mərhələsindədir.


Qiymətləndirmə alətlərinin təkmilləşdirilməsi istiqamətləri

Qida nəzarəti sisteminin qiymətləndirilməsi alətlərinin təkmilləşdirilməsi üçün kompleks və mərhələli yanaşma tələb olunur. Bu yanaşmanın əsas istiqamətləri aşağıdakılardır:

Riskəsaslı model qida zəncirinin bütün mərhələlərində potensial təhlükələrin prioritetləşdirilməsinə imkan verir. FAO və WHO-nun tövsiyələrinə əsasən, risk qiymətləndirməsi yalnız laborator nəticələrə deyil, eyni zamanda istehsal texnologiyalarına, logistika şərtlərinə və istehlak davranışlarına əsaslanmalıdır [10, s. 27].

Azərbaycanda “Avtomatlaşdırılmış Qida Təhlükəsizliyi İnformasiya Sistemi”nin tətbiqi

mühüm addım hesab olunsa da, bu sistemin analitik modullarının genişləndirilməsi zəruridir. Böyük verilənlərin (Big Data) tətbiqi risklərin proqnozlaşdırılmasını və preventiv nəzarəti gücləndirə bilər [13, s. 91].



Diaqram. Qida nəzarəti sistemində məlumat axınlarının inteqrasiya olunmuş sxemi
***Mənbə**: [17] əsasında müəllif tərəfindən tərtib olunmuşdur.*

Diaqram qida nəzarəti sistemində istehsal mərhələsindən son istehlakçıya qədər məlumat axınlarının ardıcıl və inteqrasiya olunmuş strukturunu vizual şəkildə əks etdirir. İstehsalçı subyekti tərəfindən formalaşdırılan ilkin məlumatlar laborator müayinələr vasitəsilə yoxlanılır, nəticələr müvafiq nəzarət orqanlarına ötürülür və yekunda istehlakçıların məlumatlandırılmasına xidmət edir.

Müqayisəli təhlil göstərir ki, inkişaf etmiş ölkələrdə qida nəzarəti sistemlərinin qiymətləndirilməsi üçün çoxölçülü indikatorlar tətbiq olunur. Məsələn, Almaniyada qida təhlükəsizliyi üzrə qiymətləndirmə yalnız laborator nəticələrə deyil, regional risk indekslərinə və istehlakçı məmnunluğu göstəricilərinə əsaslanır [7, s. 54].

Azərbaycanda isə əsas diqqət laborator nəzarətə yönəldilmişdir. Bu yanaşma effektiv olsa da, sosial və institusional indikatorların sistemə inteqrasiyası qiymətləndirmənin daha obyektiv aparılmasına imkan verər.

Cədvəl 3.

Azərbaycan və seçilmiş ölkələrdə qida nəzarəti qiymətləndirmə alətlərinin müqayisəsi

Ölçü meyarı	**Azərbaycan**	**Aİ ölkələri**
Risk əsaslı audit	Orta	Yüksək
Rəqəmsal inteqrasiya	Məhdud	Tam
İstehlakçı iştirakçılığı	Aşağı	Orta–yüksək

***Mənbə:** [16] və [17] əsasında müəllif tərəfindən tərtib olunmuşdur.*

Cədvəl 3-də Azərbaycan Respublikasında qida nəzarəti sistemində tətbiq olunan qiymətləndirmə alətləri ilə Avropa İttifaqı ölkələri və FAO-nun tövsiyə etdiyi beynəlxalq mexanizmlər arasında aparılan müqayisə qida təhlükəsizliyinin institusional təşkili, risklərin idarə olunması və monitorinq mexanizmlərinin yetkinlik səviyyəsini aydın şəkildə nümayiş etdirir. Müqayisə göstərir ki, qida nəzarətinin effektivliyi yalnız normativ-hüquqi bazanın mövcudluğu ilə deyil, həm də onun icra alətlərinin metodoloji dərinliyi, rəqəmsallaşma səviyyəsi və riskəsaslı yanaşmanın institusionallaşması ilə birbaşa bağlıdır.

Müqayisəli təhlil sübut edir ki, Azərbaycan qida nəzarəti qiymətləndirmə alətlərinin formalaşdırılması baxımından mühüm institusional baza yaratmışdır. Lakin FAO və AB ölkələri ilə müqayisədə bu alətlərin metodoloji dərinliyi, riskəsaslı analitik komponentləri və rəqəmsal inteqrasiyası hələ də təkmilləşdirmə mərhələsindədir. Buna görə də, qida nəzarəti sisteminin səmərəliliyinin artırılması üçün qiymətləndirmə alətlərinin yalnız say və normativ uyğunluq baxımından deyil, keyfiyyət, proqnozlaşdırma və qərarvermə dəstəyi funksiyaları baxımından da inkişaf etdirilməsi zəruridir.

Aparılan təhlil əsasında aşağıdakı tövsiyələr irəli sürülə bilər:

- qida nəzarəti sisteminin qiymətləndirilməsi üçün vahid milli indikatorlar dəstinin hazırlanması;
- riskəsaslı qiymətləndirmənin normativ sənədlərdə daha geniş əks olunması;
- laboratoriya nəticələrinin sosial-iqtisadi analizlərlə inteqrasiyası;
- dövlət və özəl sektor arasında məlumat mübadiləsinin institusional gücləndirilməsi.

Bu tədbirlər qida təhlükəsizliyi sahəsində qərar qəbuletmənin elmi əsaslarını möhkəmləndirəcək və sistemin şəffaflığını artıracaqdır.

Nəticə

Məqalədə aparılan təhlil göstərir ki, Azərbaycanda qida nəzarəti sistemi institusional baxımdan mühüm inkişaf mərhələsindən keçmişdir. Lakin qiymətləndirmə alətlərinin təkmilləşdirilməsi olmadan bu sistemin uzunmüddətli effektivliyi təmin edilə bilməz. Beynəlxalq təcrübə sübut edir ki, riskəsaslı, rəqəmsal və inteqrasiya olunmuş qiymətləndirmə modelləri qida təhlükəsizliyinin yüksəldilməsində həlledici rol oynayır. Bu baxımdan, Azərbaycanda qida nəzarəti sisteminin qiymətləndirilməsi alətlərinin davamlı təkmilləşdirilməsi insan sağlamlığının qorunması və qida sektorunun rəqabət qabiliyyətinin artırılması üçün strateji əhəmiyyət daşıyır.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyi. Qida təhlükəsizliyi haqqında hesabat. – Bakı, 2023. – 56 s.
2. Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu. Qida təhlükəsizliyi üzrə illik hesabat. – Bakı, 2024.
3. Əliyev S.H. Qida təhlükəsizliyi və dövlət nəzarətinin iqtisadi mexanizmləri. – Bakı: İqtisad Universiteti nəşriyyatı, 2018. – 214 s.
4. Hüseynov R.Q. Qida təhlükəsizliyi sisteminin institusional əsasları. // Azərbaycan Aqrar Elmi Jurnalı. – 2019. – №3. – s. 84–92.
5. Məmmədov A.İ. Azərbaycanda aqrar-ərzaq bazarının tənzimlənməsi problemləri. – Bakı: Elm, 2016. – 168 s.
6. Rzayev İ.Ə. Qida təhlükəsizliyində laborator nəzarətin rolu və perspektivləri. // Qida və Biotexnologiya Problemləri. – 2021. – №2. – s. 98–107.
7. Bundesministerium für Ernährung und Landwirtschaft (BMEL). *Jahresbericht zur Lebensmittelüberwachung 2022*. – Berlin : BMEL, 2022. – 180 S. – S. 54.
8. European Food Safety Authority. *EFSA Strategy 2021–2027: Safe food today and tomorrow*: scientific report. – Parma : EFSA, 2021. – 72 p. – P. 64.
9. FAO. Food control systems assessment. – Rome: FAO, 2018. – 120 p.
10. FAO/WHO. Principles and methods for food safety risk analysis. – Rome, 2019. – 98 p.
11. FAO. (2022). Food safety management guidelines. Rome.
12. Henson S., Caswell J. Food safety regulation // Journal of Agricultural Economics. – 1999. – Vol.50, No.3. – P.589–603.
13. Kitchin, R. *The Data Revolution: Big Data, Open Data, Data Infrastructures and Their Consequences*. – London : SAGE Publications, 2014. – 222 p. – P. 91.
14. OECD. Regulatory enforcement and inspections. – Paris: OECD, 2020.
15. https://www.stat.gov.az/
16. https://afsa.gov.az/
17. https://www.afsi.gov.az/
18. https://atm.gov.az/

Арзу Беюкага кызы Ибрагимли
преподаватель Бакинского Государственного
Университета, кандидат наук
Электронная почта: arzushka777@gmail.com

Улучшение инструментов для оценки системы контроля продуктов питания в Азербайджане

Резюме

Цель исследования: Целью исследования является анализ действующих инструментов оценки системы контроля пищевой продукции в Азербайджане, определение уровня их эффективности и научное обоснование направлений их совершенствования на основе международного опыта (FAO, WHO, EFSA).

Методология исследования: В исследовании использованы системный подход, институциональный и сравнительный анализ, анализ статистических данных, обзор нормативно-правовых актов, а также методы риск-ориентированной оценки и анализа индикаторов.

Практическая значимость исследования: Результаты исследования могут быть использованы при совершенствовании государственной политики в сфере контроля пищевой продукции, повышении эффективности контрольных механизмов, оптимизации лабораторных и мониторинговых инструментов и модернизации нормативно-правовой базы.

Результаты исследования: В ходе исследования выявлены основные сильные и слабые стороны инструментов оценки, применяемых в системе контроля пищевой продукции Азербайджана, определены пробелы в области оценки рисков, цифрового мониторинга и показателей эффективности, а также предложены научно обоснованные рекомендации по их устранению.

Оригинальность и научная новизна исследования: Научная новизна исследования заключается в применении комплексного, индикаторного и риск-ориентированного подхода к оценке системы контроля пищевой продукции в Азербайджане, а также в разработке концептуальной модели интеграции национальных и международных механизмов оценки.

Ключевые слова: контроль пищевой продукции, инструменты оценки, риск-ориентированный подход, пищевая безопасность, институциональные реформы, цифровой мониторинг.

Arzu Boyukagha Ibrahimli
teacher of Baku State University, PhD
Email: arzushka777@gmail.com

Improvement of tools for evaluation of food control system in Azerbaijan

Summary

Purpose of the study: The main purpose of the study is to analyze the existing assessment tools of the food control system in Azerbaijan, determine their effectiveness, and scientifically substantiate directions for improving these tools based on international experience (FAO, WHO, EFSA).

Methodology of the study: The research applies a systemic approach, institutional and comparative analysis, statistical data analysis, review of regulatory and legal documents, as well as risk-based assessment and indicator analysis methods.

Practical significance of the study: The findings can be used to improve public policy in the field of food control, enhance the efficiency of control mechanisms, optimize laboratory and

monitoring tools, and modernize the regulatory framework.

Results of the study: The study identifies the main strengths and weaknesses of the assessment tools used in Azerbaijan's food control system, reveals gaps in risk assessment, digital monitoring, and performance indicators, and proposes scientifically grounded recommendations to address these gaps.

Originality and scientific novelty of the study: The scientific novelty lies in the application of a comprehensive, indicator-based and risk-oriented approach to assessing the food control system in Azerbaijan, as well as in developing a conceptual model for integrating national and international assessment mechanisms.

Key words: food control, assessment tools, risk-based approach, food safety, institutional reforms, digital monitoring.

UOT: 33.504.004

Ləman Adil qızı HƏZİYEVA
Azərbaycan Kooperasiya Universiteti, doktorant
Leman222@bk.ru
https://doi.org/10.30546/4.71.730.02.2026.032

AZƏRBAYCANDA AQRAR SAHƏNİN RƏQƏMSALLAŞDIRILMASININ GENİŞLƏNDİRİLMƏSİ PERSPEKTİVLƏRİ

Xülasə

Tədqiqatın məqsədi Azərbaycanda aqrar sahənin rəqəmsallaşdırılmasının mövcud vəziyyətini təhlil etmək, bu prosesə təsir edən iqtisadi və institusional amilləri müəyyənləşdirmək və rəqəmsal texnologiyaların tətbiqinin genişləndirilməsi perspektivlərini elmi əsaslarla qiymətləndirməkdir.

İşin metodologiyası rəsmi statistik məlumatların müqayisəli və dinamik təhlilinə, aqrar sahədə rəqəmsal göstəricilərin ekonometrik qiymətləndirilməsinə, eləcə də beynəlxalq təcrübənin analizi və sistemli yanaşma metodlarına əsaslanır.

Tədqiqatın tətbiqi əhəmiyyəti ondan ibarətdir ki, əldə olunan nəticələr aqrar sahədə rəqəmsal texnologiyaların səmərəli tətbiqi üçün strateji qərarların hazırlanmasında, dövlət proqramlarının təkmilləşdirilməsində və fermerlərin rəqabət qabiliyyətinin artırılmasında praktik əsas kimi istifadə oluna bilər.

Tədqiqatın nəticələri göstərir ki, aqrar sahədə rəqəmsal texnologiyaların geniş tətbiqi məhsuldarlığın artmasına, resurslardan səmərəli istifadəyə və kənd təsərrüfatının rəqabət qabiliyyətinin yüksəlməsinə real imkanlar yaradır, lakin bunun üçün infrastruktur, maliyyələşmə və kadr potensialının gücləndirilməsi zəruridir.

Tədqiqatın orijinallığı və elmi yeniliyi Azərbaycanda aqrar sahənin rəqəmsallaşdırılmasının genişləndirilməsi perspektivlərinin kompleks və sistemli yanaşma əsasında qiymətləndirilməsi, həmçinin bu istiqamətdə iqtisadi və institusional amillərin qarşılıqlı təsirinin elmi əsaslarla təhlil edilməsindən ibarətdir.

Açar sözlər: aqrar sahə, rəqəmsallaşma, kənd təsərrüfatında innovasiyalar, infrastruktur, kənd təsərrüfatı.

Giriş

Müasir dövrdə rəqəmsal texnologiyaların sürətli inkişafı iqtisadiyyatın bütün sahələrində transformasiya proseslərini gücləndirmişdir. Rəqəmsallaşma təkcə sənaye və xidmət sektorunda deyil, həm də kənd təsərrüfatında yeni inkişaf imkanları yaratmışdır. Xüsusilə qlobal ərzaq təhlükəsizliyi problemlərinin artması fonunda aqrar sektorun modernləşdirilməsi strateji prioritetlərdən birinə çevrilmişdir. Kənd təsərrüfatında rəqəmsal texnologiyaların tətbiqi məhsuldarlığın artırılması, resurslardan səmərəli istifadə və istehsal risklərinin azaldılması baxımından mühüm rol oynayır.


Azərbaycanda da aqrar sektorun rəqəmsallaşdırılması dövlət siyasətinin mühüm istiqamətlərindən biri hesab olunur. Ölkənin iqtisadi inkişaf strategiyasında qeyri-neft sektorunun gücləndirilməsi və kənd təsərrüfatının modernləşdirilməsi xüsusi yer tutur. Müasir texnologiyaların tətbiqi fermerlərə istehsal proseslərini daha dəqiq planlaşdırmağa imkan verir. Məsələn, peyk monitorinqi və sensor texnologiyaları vasitəsilə torpaq rütubəti, temperatur və qida maddələrinin miqdarı müəyyən edilərək optimal suvarma və gübrələmə strategiyaları formalaşdırılır. Eyni zamanda, süni intellekt əsaslı analitik sistemlər bitki xəstəliklərini erkən mərhələdə aşkar etməyə və zərərvericilərlə mübarizə tədbirlərini vaxtında həyata keçirməyə kömək edir [6].

Rəqəmsal texnologiyaların tətbiqi yalnız texniki səmərəliliyi artırmaqla kifayətlənmir, həm də kənd yerlərinin sosial-iqtisadi inkişafına müsbət təsir göstərir. Elektron xidmətlərin genişlənməsi fermerlərin dövlət dəstəyi proqramlarına çıxışını asanlaşdırır, bazar məlumatlarına operativ çıxış isə satış prosesini optimallaşdırır [6]. Beləliklə, aqrar sahədə rəqəmsallaşma həm iqtisadi, həm də

ekoloji baxımdan dayanıqlı inkişafın təmin edilməsində mühüm vasitəyə çevrilir. Buna görə də Azərbaycanda aqrar sektorun rəqəmsallaşdırılmasının genişləndirilməsi perspektivlərinin elmi baxımdan araşdırılması aktual və vacib tədqiqat istiqamətlərindən biridir.

Azərbaycanda rəqəmsallaşma layihələri və proqramları

Azərbaycanda aqrar sahənin rəqəmsallaşdırılması dövlət siyasətinin mühüm istiqamətlərindən biri kimi inkişaf etdirilir. Son illərdə kənd təsərrüfatında rəqəmsal xidmətlərin genişləndirilməsi məqsədilə bir sıra dövlət proqramları və innovativ layihələr həyata keçirilmişdir. Bu layihələr aqrar sektorun səmərəliliyini artırmaq, fermerlərin dövlət xidmətlərinə çıxışını asanlaşdırmaq və istehsal proseslərində şəffaflığı təmin etmək məqsədi daşıyır. Rəqəmsal transformasiya həm iqtisadi effektivliyi artırır, həm də kənd yerlərinin sosial inkişafına müsbət təsir göstərir [2, s.23].



Qrafik 1. Azərbaycanda aqrar rəqəmsallaşma layihələri

Mənbə: *İnternet resursları əsasında hazırlanmışdır.*

Bu istiqamətdə ən mühüm layihələrdən biri Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi (EKTİS)-dir. Bu sistem aqrar sahədə idarəetmənin rəqəmsallaşdırılmasına yönəlmiş vahid məlumat platformasıdır. EKTİS fermerlərə kənd təsərrüfatı resurslarını onlayn sifariş etmək, dövlət qurumlarına elektron müraciətlər göndərmək və subsidiyalar üçün müraciət prosesini asanlaşdırmaq imkanı verir. Sistem vasitəsilə torpaq sahələri, əkin strukturu və istehsal göstəriciləri barədə məlumatlar mərkəzləşdirilmiş bazada saxlanılır. Bu isə qərar qəbuletmə prosesində məlumat şəffaflığını artırır və inzibati prosedurları sadələşdirir.

2020-ci ildən etibarən aqrar subsidiyaların verilməsi tamamilə rəqəmsal platforma üzərindən həyata keçirilir. Prezidentin müvafiq fərmanı ilə təsdiqlənmiş qaydalara əsasən, bitkiçilik, heyvandarlıq, toxumçuluq, arıçılıq və baramaçılıq üzrə dövlət dəstəyi EKTİS vasitəsilə təqdim olunur. Fermerlər sistemdə mövcud olan kalkulyator vasitəsilə subsidiya məbləğini əvvəlcədən hesablaya bilir və müraciət prosesini onlayn formada tamamlayırlar. Bu yanaşma korrupsiya risklərini azaldır və dövlət dəstəyinin daha ünvanlı bölüşdürülməsinə şərait yaradır. Statistik məlumatlara görə, 2020-ci ildə EKTİS-də yüz minlərlə fermer qeydiyyatdan keçmiş, sonrakı illərdə isə bu rəqəm daha da artmışdır ki, bu da sistemin populyarlığını göstərir [2, s.23].

Digər mühüm təşəbbüs “Ağıllı kənd” konsepsiyasıdır. Bu layihə işğaldan azad edilmiş ərazilərdə “Böyük Qayıdış” proqramı çərçivəsində həyata keçirilir və kənd yaşayışının müasir texnologiyalar əsasında təşkilini nəzərdə tutur. Ağıllı kənd modellərində yaşayış infrastrukturu, enerji təminatı, kənd təsərrüfatı istehsalı və sosial xidmətlər rəqəmsal idarəetmə prinsipləri ilə təşkil edilir. Bu layihənin ilk nümunələrindən biri Zəngilan rayonunun Ağalı kəndidir. Burada sakinlərin həyat şəraitinin yaxşılaşdırılması üçün günəş enerjisi, ağıllı suvarma sistemləri və rəqəmsal xidmətlər tətbiq edilmişdir. Layihə beynəlxalq səviyyədə də təqdim olunaraq Azərbaycanın innovativ kənd inkişaf modeli kimi tanıdılmışdır.

Bundan əlavə, aqrar sahədə maarifləndirmənin artırılması məqsədilə rəqəmsal informasiya platformaları yaradılmışdır. Kənd Təsərrüfatı Nazirliyi tərəfindən fəaliyyət göstərən agroinfo.az portalı fermerlərə aqrotexniki tövsiyələr, iqlim məlumatları və yeni texnologiyalar haqqında məlumatlar təqdim edir. Bu platformalar vasitəsilə fermerlər müasir əkin metodları, bitki mühafizəsi və məhsuldarlığın artırılması üsulları barədə operativ məlumat əldə edə bilirlər. Nəticədə, rəqəmsal platformalar kənd təsərrüfatında bilik bazasının genişlənməsinə və idarəetmənin təkmilləşdirilməsinə töhfə verir [5, s.77].

Tədqiqatın tətbiqi əhəmiyyəti ondan ibarətdir ki, əldə olunan nəticə və təkliflər dövlət-özəl sektor əməkdaşlığı mexanizmlərinin təkmilləşdirilməsi, innovasiya siyasətinin effektivliyinin artırılması və praktik iqtisadi qərarların qəbulunda istifadə oluna bilər.

Tədqiqatın nəticələri göstərir ki, Azərbaycanda innovasiyalı iqtisadiyyatın davamlı formalaşması üçün dövlət-özəl sektor əməkdaşlığının institusional əsaslarının gücləndirilməsi, hüquqi bazanın təkmilləşdirilməsi və yeni maliyyə-idarəetmə mexanizmlərinin tətbiqi həlledici əhəmiyyət daşıyır.

Tədqiqatın orijinallığı və elmi yeniliyi Azərbaycanda innovasiyalı iqtisadiyyatın formalaşmasında dövlət-özəl sektor əməkdaşlığının rəqəmsal və yaşıl transformasiya kontekstində yeni mexanizmlər üzrə kompleks analitik qiymətləndirilməsində ifadə olunur.

Açar sözlər: dövlət-özəl sektor əməkdaşlığı, rəqəmsal transformasiya, yaşıl innovasiya, iqtisadi inkişaf, texnoloji modernləşmə, Azərbaycan iqtisadiyyatı.

Giriş

Qlobal iqtisadiyyatda baş verən sürətli texnoloji dəyişikliklər, rəqəmsallaşma və yaşıl transformasiya prosesləri ölkələrin inkişaf modellərinə yenidən baxmasını zəruri edir. Müasir mərhələdə davamlı iqtisadi artımın əsas mənbəyi təbii resurslar deyil, bilik, innovasiya və yüksək texnologiyalar hesab olunur. Bu kontekstdə Azərbaycan da iqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sektorunun gücləndirilməsi istiqamətində innovasiyalı inkişaf modelini prioritet kimi müəyyən etmişdir. Son illərdə ölkədə rəqəmsal transformasiya, sənayenin modernləşdirilməsi, startap ekosisteminin formalaşdırılması və yaşıl enerji layihələrinin genişləndirilməsi istiqamətində ardıcıl addımlar atılır. İnformasiya-kommunikasiya texnologiyalarının tətbiqi, sənaye parklarının və texnoparkların yaradılması, innovasiya mərkəzlərinin təşkili iqtisadiyyatın yeni keyfiyyət mərhələsinə keçidini sürətləndirir. Bununla yanaşı, insan kapitalının inkişafı, elmi-tədqiqat fəaliyyətinin stimullaşdırılması və rəqəmsal bacarıqların artırılması innovasiyalı iqtisadiyyatın əsas dayaqları kimi çıxış edir. Bu prosesdə dövlət-özəl sektor əməkdaşlığı (DÖS və ya DÖT) mühüm mexanizm kimi ön plana çıxır. Dövlət strateji istiqamətləri və normativ-hüquqi bazanı formalaşdırır, özəl sektor isə kapital, innovativ yanaşma və idarəetmə çevikliyi təqdim edir. Belə sinerji iri infrastruktur layihələrinin reallaşdırılmasına, rəqəmsal platformaların qurulmasına və yeni texnologiyaların tətbiqinə imkan yaradır. Xüsusilə enerji, logistika, aqrar sahə və rəqəmsal xidmətlərdə tətbiq olunan yeni əməkdaşlıq modelləri innovasiya mühitini gücləndirir. Beləliklə, Azərbaycanda innovasiyalı iqtisadiyyatın formalaşması dövlət siyasəti ilə bazar mexanizmlərinin uzlaşdırılması nəticəsində mümkün olur. Yeni əməkdaşlıq mexanizmləri və institusional islahatlar ölkənin rəqabət qabiliyyətini artırmaqla yanaşı, onu regional innovasiya mərkəzinə çevirmək potensialını da gücləndirir.

Azərbaycan iqtisadiyyatı son onilliklərdə neft-qaz asılılığını azaltmaq və innovasiyalar əsasında

inkişaf etmək istiqamətini önə çəkib. 2024-cü ildə ölkənin ÜDM-i 74,6 mlrd. ABŞ dolları olmuş, bunun qeyri-neft sektorunda artım 6,2%-ə bərabər qərarlaşıb. Sənaye GDP-də 35,9%, ticarət 10,7%, nəqliyyat 7,0%, tikinti 6,7%, kənd təsərrüfatı 5,7%, turizm 2,4%, informasiya və rabitə isə təxminən 1,9% pay alıb. Həmçinin, 2024-cü ildə ölkədə quraşdırılmış bərpaolunan enerji gücü yalnız 0.6 GVt təşkil edib və 2030-cu ilədək bu göstəricinin 1,5 GVt-a çatdırılması hədəflənib. Bu rəqəmlər göstərir ki, rəqəmsal texnologiyalar və yaşıl energetika sahələrinin inkişafı üçün geniş potensial mövcuddur. Azərbaycan hökuməti “Dördüncü Sənaye İnqilabı” (4Sİ) və rəqəmsal transformasiya prioritetlərini müəyyən edərək innovasiyalı iqtisadiyyat quruculuğu strategiyalarını formalaşdırmaqdadır [8].

Cədvəl 1.

2024-cü ildə Azərbaycan iqtisadiyyatının sektorlar üzrə strukturu

Sektor	ÜDM-də payı (%)
Sənaye	35,9
Ticarət	10,7
Nəqliyyat və anbar təsərrüfatı	7
Tikinti	6,7
Kənd təsərrüfatı	5,7
Turizm	2,4
İnformasiya və rabitə	1,9

Mənbə: *https://www.trade.gov/country-commercial-guides/azerbaijan-market-overview#:~:text*

Dövlət-özəl tərəfdaşlıq (DÖT) modelləri Azərbaycanda infrastruktur layihələrinin maliyyələşdirilməsi və innovativ təşəbbüslərin reallaşdırılması üçün mühüm alət kimi nəzərdə tutulur. Lakin EBRD tərəfindən bildirildiyi kimi, ölkənin DÖT qanunvericiliyi (2016-cı il tarixli “Tikinti və infrastruktur obyektləri ilə bağlı investisiya layihələrinin xüsusi maliyyələşdirilməsinin həyata keçirilməsi haqqında” Qanun və 2016-cı il dekabrın 7-də imzalanmış fərman) hələ beynəlxalq standartlara tam uyğun deyil və modernizasiyaya ehtiyac duyur. Hökumətin 2016-cı il tarixli strateji yol xəritəsində DÖT hüquqi bazasının təkmilləşdirilməsi prioritet məsələlərdəndir. Son illərdə yeni DÖT qanunvericiliyinin qəbulu bu sahəyə sərmayələrin cəlb edilməsi üçün imkanları genişləndirib. Məsələn, 2026-cı il üçün təsdiq edilmiş dövlət-özəl tərəfdaşlığı layihələrinin siyahısına təhsil, ətraf mühit, logistika, turizm və kənd təsərrüfatı kimi müxtəlif sahələr üzrə onlarla layihə daxil edilib [7].

Cədvəl 2.

Yaşıl enerji və DÖT prioritetləri

Göstərici / Layihə istiqaməti	Mövcud vəziyyət (2024)	Hədəf / Perspektiv
Quraşdırılmış bərpaolunan enerji gücü	0,6 QVt	1,5 QVt (2030)
Yüksək Texnologiyalar Parkı	Planlaşdırılır	DÖT çərçivəsində
Tullantıların idarəedilməsi layihələri	Siyahıya daxil edilib	Ekoloji davamlılıq
Su idarəetmə sistemləri	İnkişaf mərhələsində	Resurs səmərəliliyi
Turizm və logistika zonaları	Layihə mərhələsi	Regional inkişaf

Mənbə: *https://www.azerbaycan24.com/en/azerbaijan-s-ict-sector-digital-economy-as-new-driver-of-sustainable-development/#:~:text*

Siyahıda yer alan yüksək texnologiyalar parkının inşası, tullantıların idarəedilməsi, sudan istifadə sistemləri, turizm zonası yaradılması kimi layihələr ətraf mühitin mühafizəsi və iqtisadi infrastrukturun inkişafına yönəlib. Bu cür DÖT təşəbbüsləri investisiyaların artırılması və iqtisadi inkişafın sürətləndirilməsi üçün imkan yaradır. Ümumiyyətlə, yeni qanunvericilik və inzibati islahatlar DÖT çərçivəsində innovativ layihələrin reallaşdırılması üçün əlverişli mühit yaradılması istiqamətində addımlar hesab olunur.

Rəqəmsal transformasiyada dövlət-özəl əməkdaşlığı

Rəqəmsal iqtisadiyyata keçid Azərbaycanın uzunmüddətli inkişaf strategiyasında əsas prioritetlərdən biridir. Dövlət tərəfindən qəbul olunmuş “Digital Economy Strategy 2026–2029” çərçivəsində 30-dan artıq prioritet layihənin dövlət-özəl tərəfdaşlığı (DÖT) formatında icrası nəzərdə tutulur. Bu təşəbbüslər turizm, kənd təsərrüfatı, logistika, qida təhlükəsizliyi, maliyyə xidmətləri və elektron hökumət infrastrukturu kimi geniş sahələri əhatə edir. Məqsəd yalnız texnoloji yenilənmə deyil, həm də biznes proseslərinin optimallaşdırılması və rəqəmsal xidmətlərin əlçatanlığının artırılmasıdır [1, s.35].

Bu istiqamətdə ən uğurlu nümunələrdən biri Digital Trade Hub platformasıdır. “Rəqəmsal Ticarət Portalı” ixracatçılar və investorlar üçün virtual rezidentlik, elektron imza və onlayn şirkət qeydiyyatı imkanları təqdim edir. Platforma dövlət qurumları ilə yanaşı, PASHA Bank, B.EST Solutions və AzərTelekom kimi özəl tərəfdaşların iştirakı ilə yaradılıb. Portal vasitəsilə müxtəlif ölkə vətəndaşlarına rəqəmsal identifikasiya və elektron imza sertifikatlarının təqdim olunması ixrac əməliyyatlarının məsafədən və operativ şəkildə həyata keçirilməsinə şərait yaradıb. Bu model dövlət xidmətlərinin özəl sektorun texnoloji imkanları ilə inteqrasiyasının effektiv nümunəsidir.

Rəqəmsal transformasiyanın digər mühüm istiqaməti sənaye və biznes subyektlərinin innovativ həllərlə modernləşdirilməsidir. Dördüncü Sənaye İnqilabı üzrə Təhlil və Koordinasiya Mərkəzi (4SİM) tərəfindən həyata keçirilən təşəbbüslər çərçivəsində yüzlərlə müəssisənin rəqəmsal transformasiyası, yeni startapların formalaşdırılması və kiçik və orta sahibkarlığın rəqəmsal bazarlara çıxışının genişləndirilməsi planlaşdırılır. Bu proqramlarda özəl sektor həm texnologiya təminatçısı, həm də investisiya tərəfdaşı kimi çıxış edir.

Beləliklə, DÖT mexanizmləri rəqəmsal transformasiyanın sürətləndirilməsində katalizator rolunu oynayır. Dövlət normativ və institusional baza yaradır, özəl sektor isə innovasiya, kapital və idarəetmə çevikliyi təqdim edir. Bu sinerji nəticəsində elektron xidmətlərin keyfiyyəti yüksəlir, biznes mühiti şəffaflaşır və Azərbaycan iqtisadiyyatının beynəlxalq rəqabət qabiliyyəti güclənir.

Yaşıl innovasiyada dövlət-özəl əməkdaşlığı

Yaşıl iqtisadiyyata keçid və ətraf mühitin mühafizəsi də dövlət-özəl tərəfdaşlığının əsas prioritetlərindəndir. Hökmət ötən illərdə enerji səmərəliliyinin artırılması və bərpaolunan enerjiyə keçid üçün xarici maliyyə institutları ilə (EBRD, ADB, Dünya Bankı) əməkdaşlıq edir. EBRD və digər donorların kreditləri dövlət binalarında istilik izolyasiyası, enerji səmərəli pəncərələr quraşdırılması kimi tədbirlərə yönəlib. Eyni zamanda, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası iştirakçısı kimi Azərbaycan 2030-cu ildə istixana qazı tullantılarını 1990-cı il səviyyəsindən 35% azaltmağı öhdəsinə götürüb, bunun üçün böyük həcmdə bərpaolunan enerji potensialından istifadə planlaşdırılır [3, s.87].

Beynəlxalq tərəfdaşlarla imzalanan razılaşmalar çərçivəsində ölkədə çoxsaylı yaşıl enerji layihələri təşəbbüsləri həyata keçirilir. Məsələn, BƏƏ-nin Masdar şirkəti ilə saziş çərçivəsində 1 GVt-a qədər qarışıq günəş və külək enerjisi, 230 MVt-lıq “Qaradağ” günəş parkı və 2 GVt-a qədər dəniz, külək enerji və yaşıl hidrogen layihələrinin işlənməsi nəzərdə tutulur. Oxşar şəkildə, Fortescue Future Industries ilə bağlanan razılaşma çərçivəsində 12 GVt həcmində külək enerjisi və yaşıl hidrogen layihələri planlaşdırılır. Bu layihələr genişmiqyaslı PPP formatında icra edilir, xarici sərmayələri cəlb etməklə bərpaolunan enerji istehsalını həvəsləndirir.

Ölkənin ilk böyük külək stansiyası – 240 MVt-lıq “Xızı-Ələt” külək parkı da PPP mexanizmi ilə inşa olunur. Burada Acwa Power şirkətinin layihə şirkəti (Ölkə Enerji Nazirliyi ilə), EBRD və OPEC Fondu qarışıq maliyyələşdirmə icra edir. Bu stansiya ildə 893 GVsaat elektrik istehsal edəcək və coğrafi mövqeyinə görə Qafqazda ən böyük külək parkıdır. Hesablamalara görə, stansiya istismara verildikdə ildə 400 min tondan artıq karbon qazının əvəz olunmasına nail olacaq. OPEC Fondu qurumunun rəhbəri qeyd edir ki, bu layihə həm xarici investisiyaları və özəl sektor maliyyəsini cəlb etməklə Azərbaycanın PPP formatlı bərpaolunan enerji sahəsində əhəmiyyətli dönüş nöqtəsini təşkil edəcək. Qeyd edək ki, EBRD ötən il “Qaradağ”da ölkənin ilk özəl günəş elektrik stansiyasını maliyyələşdirmişdi. Beləliklə, ölkənin yaşıl enerji sahəsinə dəstək ardıcıl davam edir.

Dövlət-özəl əməkdaşlığı yalnız enerji sektorunda deyil, digər yaşıl infrastruktur layihələrində də aktiv istifadə olunur. Məsələn, 2026-cı ilin PPP layihələri siyahısında Lənkəran şəhərində tullantıların idarəedilməsi zavodu, heyvan cəsədləri emalı məntəqələri, Hovsan aerasiya stansiyasının bərpası və s. kimi ekoloji önəmli layihələr yer alıb. Bu təşəbbüslər ekoloji infrastrukturun inkişafı və ətraf mühitin qorunması sahəsində özəl investisiyaların rolunu artırır. Nəticədə DÖT çərçivəsində həyata keçirilən yaşıl layihələr Azərbaycan iqtisadiyyatının karbon itkisini azaltmağa, enerji və su səmərəliliyini yüksəltməyə xidmət edir [5].

İnnovasiya klasterləri, inkubasiya mərkəzləri və digər mexanizmlər

Azərbaycanın innovasiya ekosisteminin əsas elementləri sırasında yüksək texnologiyalar parkları, innovasiya mərkəzləri və universitet-inkubasiya kompleksləri mühüm yer tutur. Məsələn, Azərbaycan Milli Elmlər Akademiyası nəzdində yaradılmış Yüksək Texnologiyalar Parkı (YTP) 2016-cı il dekabrın 8-də İlham Əliyevin sərəncamı ilə təsis edilib. YTP-nin əsas məqsədi elmi nailiyyətlər əsasında innovasiya və yüksək texnologiya sahələrinin inkişafını təmin etmək, elmi tədqiqatların kommersiyalaşdırılması üçün infrastruktur yaratmaqdır. YTP rezidentləri arasında aparıcı kimya və informasiya texnologiyaları müəssisələri var, parkda “Texnologiya Transferi və Biznes İnkubasiya” şöbəsi fəaliyyət göstərir.

Pirallahı Yüksək Texnologiyalar Parkı isə 2012-ci ildə yaradılıb və İKT, alternativ və bərpaolunan enerji, kibertəhlükəsizlik, biotexnologiyalar, kosmos texnologiyaları kimi sahələri hədəfləyir. Burada rezident şirkətlər üçün ixtisaslaşmış laboratoriyalar, FabLab və innovasiya mərkəzləri mövcuddur. İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi (IDDA) bu park vasitəsilə bir neçə inkişafa dəstək proqramları həyata keçirir. Agentlik Barama İnnovasiya və Sahibkarlıq Mərkəzi (hazırda 3 filial) və Symbioz Texniki Inkubasiya Mərkəzini dəstəkləyir. Mingəçevir Yüksək Texnologiyalar Parkı (2015-ci ildə açılıb) isə kompüter texnikası və elektronika sahəsində ixtisaslaşır. Bu yüksək texnologiyalar klasterləri özəl sektorun yeni ideyalara investisiya qoymasına şərait yaradır, startap və texnoparkların fəaliyyətini təşviq edir.

Universitetlər də innovasiya təşəbbüslərinə çoxşaxəli dəstək verir. Məsələn, UNEC universitetində 2022-ci ildən fəaliyyətə başlamış “UNEC Startup Inkubator”u tələbə və məzun sahibkarlarını dəstəkləyir. Bu inkubasiya mərkəzi müxtəlif proqramlar, tələbə yarışmaları, hakatonlar təşkil edərək startap mədəniyyətini gücləndirməyə çalışır. Azərbaycan Texniki Universitetinin (AzTU) İnkubasiya Mərkəzi tələbələr üçün “Startap Günləri”, akselerasiya proqramları və mentorluq fəaliyyəti keçirir. Belə inkubator və akseleratorlar gənc innovatorlara ilkin sərmayə və təlim dəstəyi verərək, onların ideyalarını kommersiya layihələrinə çevirməsinə imkan yaradır. Bu mexanizmlər dövlət-özəl əməkdaşlığını inkişaf etdirən mühüm amillərdən biridir, çünki onlar həm dövlət, həm akademik və həm də özəl sektor resurslarını birləşdirərək bilik transferini sürətləndirir.

İqtisadi təsir və uğur amilləri

Dövlət-özəl tərəfdaşlıq (DÖT) mexanizmi innovasiyaların real iqtisadi nəticələrə çevrilməsində mühüm rol oynayır. Bu model dövlət resursları ilə özəl kapital və idarəetmə çevikliyini birləşdirərək iri infrastruktur layihələrinin daha sürətli və səmərəli icrasına imkan verir. Xüsusilə enerji, nəqliyyat, rəqəmsal texnologiyalar və sənaye parkları kimi sahələrdə DÖT yanaşması investisiya yükünü bölüşdürür və risklərin optimallaşdırılmasını təmin edir.

Yaşıl enerji sahəsində həyata keçirilən layihələr bunun bariz nümunəsidir. Məsələn, 240 MVt gücündə külək elektrik stansiyası üzrə DÖT layihəsinin illik 400 min tondan artıq CO_2 emissiyasını əvəz edəcəyi gözlənilir. Bu, həm ekoloji davamlılığa töhfə verir, həm də enerji təhlükəsizliyini gücləndirir. Belə layihələr adətən beynəlxalq investorların iştirakı ilə reallaşır və texnologiya transferinə şərait yaradır. Son illərdə ölkəyə milyardlarla dollar həcmində birbaşa xarici investisiya cəlb olunması qeyri-neft sektorunda, xüsusilə sənaye modernizasiyası və rəqəmsal transformasiya istiqamətlərində dinamikanı artırıb. Bu kapital axını müəssisələrin texnoloji yenilənməsinə, ixrac potensialının genişlənməsinə və yeni iş yerlərinin açılmasına imkan verib [2, s.45].

DÖT təşəbbüsləri kiçik və orta sahibkarlığın inkişafına da müsbət təsir göstərir. Rəqəmsal iqtisadiyyat strategiyası çərçivəsində yüzlərlə müəssisənin transformasiyaya cəlb edilməsi və yeni

startapların yaradılması planlaşdırılır. Bu prosesdə özəl sektor həm texnoloji tərəfdaş, həm də investor qismində çıxış edir. Təlim, mentorluq və rəqəmsal bazarlara çıxış imkanları yerli biznes subyektlərinin rəqabət qabiliyyətini artırır. Nəticədə məhsuldarlıq yüksəlir, innovasiya aktivliyi genişlənir və iqtisadi artımın keyfiyyəti yaxşılaşır.

Bununla belə, DÖT mexanizmlərinin uğuru institusional mühitdən birbaşa asılıdır. Güclü hüquqi baza, şəffaf tender prosedurları və risklərin ədalətli bölgüsü əsas şərtlərdir. European Bank for Reconstruction and Development ekspertlərinin vurğuladığı kimi, banklaşdırıla bilən və investorlara proqnozlaşdırıla bilən mühitin yaradılması PPP layihələrinin davamlılığı üçün həlledicidir. Dövlət zəmanətləri, uzunmüddətli tarif mexanizmləri və investisiyanın geri dönüşünün aydın şəkildə tənzimlənməsi tərəflər arasında etimadı möhkəmləndirir. Əks halda, normativ qeyri-müəyyənlik və maliyyə riskləri layihələrin reallaşmasını ləngidə bilər.

Beynəlxalq təcrübə

Dövlət-özəl tərəfdaşlıq (DÖT) və innovasiya əsaslı inkişaf modeli qlobal iqtisadiyyatda geniş tətbiq olunan mexanizmlərdən biridir. Xüsusilə son onillikdə rəqəmsal transformasiya və yaşıl iqtisadiyyat prioritetlərinin güclənməsi DÖT mexanizmlərinin strateji əhəmiyyətini daha da artırmışdır. İnkişaf etmiş ölkələrdə bu model yalnız infrastrukturun maliyyələşdirilməsi vasitəsi deyil, eyni zamanda innovasiya ekosisteminin formalaşdırılması, texnologiya transferi və bilik iqtisadiyyatının təşviqi aləti kimi çıxış edir.

Məsələn, Estoniya rəqəmsal dövlət quruculuğu və e-hökumət sahəsində qabaqcıl təcrübəsi ilə seçilir. Onun e-Residency proqramı qlobal sahibkarlara məsafədən biznes qeydiyyatı və rəqəmsal identifikasiya imkanı yaradır. Azərbaycan da oxşar model tətbiq edərək rəqəmsal rezidentlik və elektron imza sistemlərini inkişaf etdirmişdir. Bu istiqamətdə beynəlxalq təcrübənin öyrənilməsi rəqəmsal xidmətlərin ixrac potensialını artırmağa imkan verir.

Avropa İttifaqına üzv ölkələrdə DÖT mexanizmləri əsasən nəqliyyat infrastrukturu, geniş-zolaqlı internet şəbəkələri, “ağıllı şəhər” sistemləri və enerji səmərəliliyi layihələrində tətbiq olunur. Məsələn, Almaniya və Fransa yaşıl enerji və innovativ sənaye parklarının yaradılmasında dövlət və özəl sektorun birgə maliyyələşmə modelindən istifadə edir. Bu ölkələrdə hüquqi çərçivənin şəffaflığı və risklərin bölüşdürülməsi mexanizmi DÖT layihələrinin uğurunun əsas amillərindən hesab olunur [4, s.56].

Asiya ölkələrində isə, xüsusilə Cənubi Koreya və Sinqapur innovasiya klasterləri və texnoparkların inkişafında DÖT modeli geniş tətbiq edilir. Bu ölkələrdə dövlət ilkin infrastruktur və normativ bazanı təmin edir, özəl sektor isə texnologiya və investisiya resurslarını təqdim edir. Nəticədə yüksək əlavə dəyər yaradan məhsullar və ixracyönümlü startap ekosistemi formalaşır.

İnkişaf etməkdə olan ölkələrdə isə DÖT daha çox bərpaolunan enerji, su və tullantı idarəetməsi sahəsində tətbiq olunur. Bu model beynəlxalq maliyyə institutlarının iştirakı ilə həyata keçirilərək risklərin azaldılmasına və uzunmüddətli investisiyaların cəlb edilməsinə şərait yaradır.

Azərbaycan beynəlxalq təcrübəni nəzərə alaraq DÖT mexanizmlərini rəqəmsal transformasiya və yaşıl innovasiya kontekstində tətbiq etməyə çalışır. Qlobal təcrübə göstərir ki, institusional sabitlik, şəffaflıq və strateji planlaşdırma mövcud olduqda dövlət-özəl əməkdaşlığı innovasiyalı iqtisadiyyatın əsas hərəkətverici qüvvəsinə çevrilə bilər.

Nəticələr və təkliflər

Azərbaycanda innovasiyalı iqtisadiyyatın formalaşması və yaşıl transformasiyanın sürətləndirilməsi istiqamətində dövlət-özəl tərəfdaşlıq (DÖT) mexanizmləri strateji əhəmiyyət daşıyır. Mövcud təcrübə göstərir ki, rəqəmsal infrastrukturun inkişafı, bərpaolunan enerji layihələrinin reallaşdırılması, startap ekosisteminin genişlənməsi və innovasiya klasterlərinin yaradılması məhz dövlət və özəl sektorun koordinasiyalı fəaliyyəti nəticəsində mümkün olur. Bu əməkdaşlıq modeli iqtisadiyyatın şaxələndirilməsinə, qeyri-neft sektorunun payının artmasına və uzunmüddətli dayanıqlı inkişafın təmin edilməsinə xidmət edir.

Bununla belə, DÖT mexanizmlərinin effektivliyini artırmaq üçün institusional və normativ

çərçivənin daha da təkmilləşdirilməsi vacibdir. İlk növbədə, hüquqi baza beynəlxalq standartlara uyğunlaşdırılmalı, layihələrin seçimi və icrası prosesində şəffaflıq və hesabatlılıq gücləndirilməlidir. İnvestorlar üçün vergi güzəştləri, uzunmüddətli maliyyə təminatları və risklərin bölüşdürülməsi mexanizmləri daha aydın şəkildə müəyyən olunmalıdır. Bu, özəl sektorun innovativ və yüksək texnoloji layihələrə marağını artıracaqdır.

Eyni zamanda, universitetlər, tədqiqat institutları və texnoparklar arasında əlaqələrin sistemli şəkildə qurulması zəruridir. İnnovasiya klasterlərinin inkişafı üçün elmi tədqiqat nəticələrinin kommersiyalaşdırılması mexanizmləri sadələşdirilməli, inkubasiya və akselerasiya proqramlarına dövlət dəstəyi artırılmalıdır. Rəqəmsal bacarıqların inkişafı və insan kapitalına investisiya uzunmüddətli innovasiya strategiyasının əsas dayağı kimi qəbul edilməlidir.

Beynəlxalq tərəfdaşlıq çərçivəsində texnologiya transferi, birgə tədqiqat proqramları və yaşıl maliyyə alətlərindən istifadə imkanları genişləndirilməlidir. Qlobal təcrübənin tətbiqi Azərbaycanın rəqabət qabiliyyətini artırmaqla yanaşı, regional innovasiya mərkəzinə çevrilməsi üçün real zəmin yaradır.

Nəticə etibarilə, DÖT mexanizmlərinin sistemli və məqsədyönlü tətbiqi ölkənin iqtisadi transformasiyasını sürətləndirə, rəqəmsal və yaşıl inkişaf modelinə keçidi təmin edə və Azərbaycanın beynəlxalq iqtisadi inteqrasiyasını gücləndirə bilər.

ƏDƏBİYYAT

1. Akhundov, K. (2026, 19 fevral). Harnessing AI and green technologies – Azerbaijan’s path to a sustainable digital economy. Caliber.az.
2. Euronews. (2026, yanvar 22). How Azerbaijan is using public-private partnerships to drive economic diversification.
3. European Bank for Reconstruction and Development (EBRD). (2020). Azerbaijan – PPP Legislative and Regulatory Framework Development.
4. European Bank for Reconstruction and Development (EBRD). (2023, 26 oktyabr). EBRD finances first utility-scale wind power plant in Azerbaijan.
5. https://www.iasp.ws/our-members/directory/@474379/innovation-and-digital-development-agency---pirallahi-high-tech-park
6. https://caspian-alpine.org/innovation-and-investment-azerbaijan-on-the-path-to-a-digital-economy/#:~:text
7. https://www.trade.gov/country-commercial-guides/azerbaijan-market-overview#:~:text
8. https://www.azerbaycan24.com/en/azerbaijan-s-ict-sector-digital-economy-as-new-driver-of-sustainable-development/#:~:text

Севда Эльшан кызы Алиева
докторант, АУК

Формирование инновационной экономики в Азербайджане: государственно-частное партнерство и новые механизмы

Резюме

Цель исследования – анализ роли сотрудничества государственного и частного секторов в формировании инновационной экономики Азербайджана, оценка существующих механизмов и выдвижение предложений по новым, более эффективным моделям сотрудничества.

Методология работы основана на сравнительном анализе, анализе статистических данных, изучении нормативно-правовых документов и систематическом изучении международного опыта.

Прикладная значимость исследования заключается в том, что полученные результаты и предложения могут быть использованы для совершенствования механизмов сотрудничества государственного и частного секторов, повышения эффективности инновационной политики и принятия практических экономических решений.

Результаты исследования показывают, что укрепление институциональных основ сотрудничества государственного и частного секторов, совершенствование правовой базы и внедрение новых финансово-управленческих механизмов имеют решающее значение для устойчивого формирования инновационной экономики Азербайджана.

Оригинальность и научная новизна исследования выражаются в комплексной аналитической оценке сотрудничества государственного и частного секторов в формировании инновационной экономики Азербайджана на основе новых механизмов в контексте цифровой и зеленой трансформации.

Ключевые слова: сотрудничество государственного и частного секторов, цифровая трансформация, зеленые инновации, экономическое развитие, технологическая модернизация, экономика Азербайджана.

Sevda Elshan Aliyeva
PhD-student, ACU

Formation of an innovative economy in Azerbaijan: public-private partnership and new mechanisms

Summary

The purpose of the study is to analyze the role of public-private sector cooperation in the formation of an innovative economy in Azerbaijan, to evaluate existing mechanisms and to put forward proposals for new, more effective cooperation models.

The methodology of the work is based on comparative analysis, analysis of statistical data, study of regulatory and legal documents and systematic study of international experience.

The applied significance of the study is that the results and proposals obtained can be used to improve public-private sector cooperation mechanisms, increase the effectiveness of innovation policy and make practical economic decisions.

The results of the study show that strengthening the institutional foundations of public-private sector cooperation, improving the legal framework and implementing new financial and management mechanisms are of crucial importance for the sustainable formation of an innovative economy in Azerbaijan.

The originality and scientific novelty of the study are expressed in the complex analytical assessment of public-private sector cooperation in the formation of an innovative economy in Azerbaijan on new mechanisms in the context of digital and green transformation.

Key words: public-private sector cooperation, digital transformation, green innovation, economic development, technological modernization, Azerbaijani economy.

UOT: 004.056; **JEL:** L86; O33

Aytən Həsən qızı SÜLEYMANOVA
Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyası magistrantı
E-mail: hesenovaayten90@gmail.com

Pərviz Əhməd oğlu QURBANOV
Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyası
“Dövlət idarəçiliyində informasiya texnologiyaları”
kafedrasının dosenti, iqtisad üzrə fəlsəfə doktoru
E-mail: parviz.gurban@gmail.com
https://doi.org/10.30546/4.71.730.02.2026.058

DÖVLƏT RƏQƏMSALLAŞMA STRATEGİYALARINDA AZƏRBAYCAN MODELİ

Xülasə

Tədqiqatın məqsədi: Rəqəmsal idarəetmə modellərinin nəzəri və praktiki əsaslarını təhlil etmək, onların üstünlüklərini müəyyənləşdirmək və beynəlxalq təcrübə fonunda Azərbaycan üçün rəqəmsal inkişaf istiqamətlərini qiymətləndirməkdən ibarətdir.

Tədqiqatın metodologiyası: Rəqəmsallaşma və rəqəmsal idarəetmə üzrə elmi mənbələrin, beynəlxalq hesabatların və statistik məlumatların sistemli şəkildə təhlilinə əsaslanır. Araşdırmada analitik, müqayisəli və sistemləşdirici yanaşmalardan istifadə olunmuş, həmçinin Azərbaycanın “E-Hökumət İnkişaf İndeksi” (EGDI) göstəriciləri beynəlxalq təcrübə ilə müqayisəli şəkildə qiymətləndirilmişdir.

Tədqiqatın tətbiqi: Tədqiqatın nəticələri rəqəmsal transformasiya strategiyalarının hazırlanmasında, idarəetmə modellərinin seçilməsində və rəqəmsallaşmanın təşkilati strukturlara inteqrasiyasında əhəmiyyətli tətbiqi dəyər yaradır. Xüsusilə də rəqəmsal inkişaf üzrə prioritetlərin müəyyənləşdirilməsində və strateji qərarvermədə istifadə oluna bilər.

Tədqiqatın nəticələri: Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, rəqəmsal idarəetmə modelləri müasir idarəetmə sistemlərinin əsas transformasiya alətlərindəndir və onların tətbiqi həm dövlət, həm də özəl sektorun effektivliyini artırır. Azərbaycanın EGDI göstəricilərində əldə etdiyi nailiyyətlər rəqəmsal hökumət siyasətinin uğurlu olduğunu sübut edir, lakin davamlı inkişaf üçün rəqəmsal bacarıqların gücləndirilməsi və innovativ texnologiyaların geniş tətbiqi tələb olunur.

Tədqiqatın orijinallığı və elmi yeniliyi: Tədqiqatın elmi yeniliyi rəqəmsal idarəetmə modellərinin kompleks şəkildə sistemləşdirilməsi və Azərbaycanın rəqəmsal inkişafının beynəlxalq qiymətləndirmələr əsasında yeni analitik yanaşma ilə təhlil edilməsindən ibarətdir.

Açar sözlər: rəqəmsallaşma, rəqəmsal idarəetmə, e-hökumət, rəqəmsal transformasiya, EGDI.

Giriş

Rəqəmsallaşma – məlumatların, proseslərin və xidmətlərin analoq (kağız və ya ənənəvi) formadan rəqəmsal (elektron) formaya keçirilməsi və bu prosesin idarəetmə, xidmət və kommunikasiya münasibətlərinə inteqrasiyası prosesidir. Müasir dövrdə rəqəmsallaşma sadəcə texnoloji yenilik deyil, həm də idarəetmə fəlsəfəsini dəyişən sistematik bir transformasiya hesab olunur. Bu, müasir informasiya-kommunikasiya texnologiyalarından (İKT) istifadə etməklə həyata keçirilir və cəmiyyətin bütün sahələrinə – iqtisadiyyata, təhsilə, səhiyyəyə, dövlət idarəçiliyinə və s. təsir göstərir. Başqa sözlə, rəqəmsallaşma – rəqəmsal texnologiyaların gündəlik fəaliyyətə inteqrasiyasıdır, yəni texnologiyanın köməyi ilə işlərin daha səmərəli, şəffaf və əlçatan şəkildə aparılması deməkdir.

Rəqəmsal idarəetmə modellərinin dövlət strukturlarına inteqrasiyası

Rəqəmsallaşmanın mahiyyəti yalnız texniki dəyişiklik deyil, həm də idarəetmə, kommunikasiya və qərarvermə mədəniyyətində baş verən dərin struktur islahatıdır.

Rəqəmsal idarəetmənin nəzəri əsasları onun müxtəlif tətbiq modellərinin formalaşmasına zəmin yaradır. Bu baxımdan, idarəetmə proseslərinin rəqəmsallaşdırılmasında istifadə olunan əsas modellərin sistemləşdirilməsi xüsusi əhəmiyyət kəsb edir və həmin modellərə nəzər salmaq məqsədəuyğundur.

Sözügedən əsas rəqəmsal idarəetmə modellərinin təsnifatı və üstünlükləri aşağıdakı cədvəldə təsvir olunmuşdur.

Cədvəl 1.

№	Modelin adı	Qısa izah	Əsas üstünlüklər
1	**Elektron idarəetmə (E-Management)**	İdarəetmə proseslərinin rəqəmsal platformalar üzərindən həyata keçirilməsi.	Şəffaflıq, sənəd dövriyyəsinin azaldılması, vaxt qənaəti.
2	**Məlumat əsaslı idarəetmə (Data-Driven Management)**	Qərarların faktiki məlumat və analitik nəticələr əsasında qəbul edilməsi.	Dəqiqlik, obyektivlik, risklərin azaldılması.
3	**Bulud əsaslı idarəetmə (Cloud-Based Management)**	İdarəetmə sistemlərinin bulud infrastrukturu üzərindən təşkili.	Uzaqdan idarəetmə, təhlükəsizlik, miqyaslana bilmə.
4	**Ağıllı idarəetmə (Smart Management)**	Süni intellekt və IoT texnologiyalarının inteqrasiyası ilə idarəetmə.	Avtomatlaşdırma, proqnozlaşdırma, resurs optimallaşdırması.
5	**Çevik idarəetmə (Agile Management)**	Layihə və komanda idarəetməsində çevik metodların tətbiqi.	Tez adaptasiya, əməkdaşlıq, müştəri yönümlülük.
6	**Rəqəmsal transformasiya modeli (Digital Transformation Model)**	Ənənəvi idarəetmədən rəqəmsal idarəetməyə keçid mərhələlərinin planlaşdırılması.	Yenilikçilik, rəqabət qabiliyyətinin artırılması.
7	**Platforma əsaslı idarəetmə (Platform-Based Management)**	Fərqli iştirakçıların və resursların vahid rəqəmsal platformada birləşdirilməsi.	Şəbəkə effekti, əməkdaşlıq, dəyər zəncirinin inteqrasiyası.
8	**Süni intellektlə dəstəklənən idarəetmə (AI-Driven Management)**	Qərarvermə proseslərində süni intellekt alqoritmlərindən istifadə.	Avtomatik qərar dəstəyi, xətaların azaldılması, öyrənən sistemlər.

Göründüyü kimi, rəqəmsal idarəetmə modelləri ənənəvi idarəetmə yanaşmalarına nisbətən bir sıra üstünlüklərə malikdir:

- **Şəffaflıq və hesabatlılıq:** Məlumatların rəqəmsal izlənməsi və paylaşılması idarəetmədə şəffaflığı artırır.
- **Operativlik:** Qərarlar real vaxt rejimində qəbul edilir.
- **Avtomatlaşdırma:** Əməktutumlu idarəetmə funksiyaları texnoloji alətlərlə əvəz olunur.
- **Məlumat təhlükəsizliyi:** Bulud və şifrələmə texnologiyaları məlumatların qorunmasını təmin edir.
- **İnnovativ inkişaf:** Süni intellekt, analitika və avtomatlaşdırma sayəsində innovasiyaların tətbiqi asanlaşır.

Artıq rəqəmsal idarəetmə modelləri müasir təşkilatların strateji idarəetmə konsepsiyasının ayrılmaz hissəsinə çevrilmişdir. Bütün sahələrdə olduğu kimi dövlət idarəetməsində də rəqəmsallaşma prosesləri son illərdə qlobal trendə çevrilmişdir. Rəqəmsal idarəetmə modelləri dövlət strukturlarına inteqrasiya edildikdə idarəetmənin şəffaflığı, sürəti və səmərəliliyi əhəmiyyətli dərə-

cədə artır. Bu, həm də vətəndaş məmnuniyyətini yüksəldir, büdcə və resursların daha optimal istifadəsinə imkan yaradır.

Dövlət strukturlarına rəqəmsal idarəetmənin inteqrasiyası bir neçə əsas formada özünü göstərir:

- ✓ **E-xidmətlər və portal sistemləri:** Məsələn, vergi, sosial sığorta, təhsil və səhiyyə xidmətlərinin onlayn platformalarda təqdim olunması.
- ✓ **Elektron sənəd dövriyyəsi və hesabatlılıq:** Dövlət orqanlarında kağız sənəd istifadəsinin minimuma endirilməsi, bütün məlumatların elektron sistemdə toplanması.
- ✓ **Analitik və qərar dəstək sistemləri:** Big Data və süni intellekt əsasında dövlət layihələrinin və proqramlarının səmərəliliyinin qiymətləndirilməsi.
- ✓ **Ağıllı şəhər və infrastruktur layihələri:** IoT sensorları və rəqəmsal monitorinq sistemləri vasitəsilə şəhər idarəçiliyinin optimallaşdırılması və s.

Bu yanaşmalar göstərir ki, rəqəmsal idarəetmə modellərinin tətbiqi idarəetmənin səmərəliliyini artırmaqla yanaşı, qərarvermə proseslərinin dəqiqliyini və çevikliyini təmin edir, həmçinin insan resurslarından asılılığı minimuma endirir.

Dövlət rəqəmsallaşma strategiyaları: beynəlxalq təcrübə və Azərbaycan modeli

Rəqəmsallaşma strategiyası – dövlətin, təşkilatın və ya müəssisənin fəaliyyətində rəqəmsal texnologiyaların tətbiqini sistemli şəkildə planlaşdıran və idarə edən strateji yanaşmadır. Bu strategiyanın əsas məqsədi iqtisadi, idarəetmə və sosial sahələrdə effektivliyi, şəffaflığı və innovativliyi artırmaq üçün rəqəmsal imkanlardan məqsədyönlü şəkildə istifadə etməkdir. Bu strategiya həm texnoloji, həm də təşkilati dəyişiklikləri əhatə edir, yəni yalnız yeni texnologiyaların tətbiqi deyil, həm də idarəetmə strukturlarının, proseslərin və insan resurslarının rəqəmsal mühitə uyğunlaşdırılmasını nəzərdə tutur.

Azərbaycanın rəqəmsal strategiyası beynəlxalq təcrübə ilə milli xüsusiyyətlərin uzlaşdırıldığı kompleks bir model kimi inkişaf etdirilərək, iqtisadi dayanıqlığın gücləndirilməsini, idarəetmənin təkmilləşdirilməsini və vətəndaş rifahının artırılmasını təmin etməyə yönəlib.

Təsadüfi deyil ki, 2024-cü ildə United Nations-un “E-Hökumət İnkişaf İndeksi” (EGDI) üzrə hesabatında Azərbaycan aşağıdakı mühüm nailiyyətləri əldə edib:

- ❖ Ölkəmiz **74-cü yer**ə yüksəlib.
- ❖ 0-dan 1-ə qədər olan skalada Azərbaycan üçün qeyd edilən göstərici **0,7607 bal** olub.

Beləliklə, Azərbaycan **“çox yüksək” (Very High) EGDI kateqoriyasına** daxil olmağa nail olmuşdur. Bu uğuru ölkəmiz indiyədək ilk dəfə əldə etmişdir.

Qeyd edək ki, EGDI hesabatı üç əsas komponent üzrə qiymətləndirilir:

1. Onlayn xidmətlər indeksi (Online Services Index, OSI)
2. Telekommunikasiya infrastrukturu indeksi (Telecommunications Infrastructure Index, TII)
3. İnsan kapitalı indeksi (Human Capital Index, HCI)

Hesabatda xüsusi vurğulanmışdır ki, Azərbaycan TII üzrə yüksək göstəricilərə malik olmaqla yanaşı, onlayn xidmətlər sahəsində də artım göstərmişdir. Regional səviyyədə isə Azərbaycan 9-cu yerdə qərarlaşmışdır.

Bu göstəricilər sübut edir ki, Azərbaycan rəqəmsal idarəetmə, elektron xidmətlər və infrastrukturun inkişafı istiqamətində həyata keçirilən strateji proqramların nəticələrini artıq beynəlxalq səviyyədə nümayiş etdirməyə başlayıb.

Estoniya	(9.5)
Sinqapur	(9.3)
Cənubi Koreya	(8.9)
ABŞ	(8.2)
Avropa İttifaqı	(8.0)
Azərbaycan	(7.6)

Onu da qeyd edək ki, BMT-nin “E-Hökumət İnkişaf İndeksi” (EGDI) hesabatında Azərbayca-

nın “çox yüksək” kateqoriyaya yüksəlməsi qeyd olunsa da, sənəddə ölkə üçün gələcək mərhələlərdə prioritet istiqamət kimi nəzərdən keçirilməli sahələr də vurğulanır.

Hesabatın açıqlamalarında və analizlərində göstərilir ki, Azərbaycan aşağıdakı istiqamətlər üzrə rəqəmsal inkişafını davam etdirə bilər:

- Onlayn xidmətlərin təminatı və ictimai-elektron xidmətlərin genişliyi hələ də inkişaf imkanı daşıyır;
- İnsan kapitalının – rəqəmsal bacarıqlar, həyatboyu öyrənmə, İKT sahəsində peşə hazırlığı – gücləndirilməsi vacibdir;
- Rəqəmsal hökumət infrastrukturu kifayət qədər inkişaf etsə də, vətəndaşların qərarvermə proseslərində elektron iştirakını və dövlətlə qarşılıqlı əlaqəsini gücləndirmək üçün əlavə addımlar atılmalıdır;
- Yeni texnologiyaların – süni intellekt (AI), böyük məlumat (Big Data), bulud texnologiyalarının tətbiqi və bu texnologiyaların dövlət idarəçiliyində istifadə olunması sürətləndirilməlidir;
- Xüsusən regionlarda və kənd yerlərində rəqəmsal xidmətlərə çıxış imkanlarının və sifarişçilərin (vətəndaşların) xidmətlərdən effektiv istifadəetmə imkanlarının artırılması vacibdir.

Bütün göstərilən nəticələr təsdiq edir ki, Azərbaycan rəqəmsal idarəetmə sahəsində əldə etdiyi uğurları beynəlxalq səviyyədə nümayiş etdirmişdir. Bununla yanaşı, ölkənin rəqəmsal transformasiya üzrə prioritet istiqamətlərdə inkişafını davam etdirməsi, strateji proqramları təkmilləşdirməsi və rəqəmsal xidmətlərin effektivliyini artırması mühüm əhəmiyyət kəsb edir.

Nəticə

Beləliklə, tədqiqatımız göstərdi ki, Azərbaycan rəqəmsal idarəetmə sahəsində formalaşdırdığı milli model vasitəsilə qlobal rəqabətlilik göstəricilərində əhəmiyyətli irəliləyiş əldə etmişdir. Azərbaycan modeli rəqəmsal infrastrukturun gücləndirilməsi, geniş elektron xidmətlər şəbəkəsinin qurulması və dövlət idarəetməsində innovativ texnologiyaların tətbiqi ilə fərqlənir. Bununla belə, bu modelin davamlı inkişafı üçün rəqəmsal bacarıqların artırılması, regionlarda rəqəmsal xidmətlərin əlçatanlığının genişləndirilməsi və süni intellekt kimi yeni texnologiyaların daha fəal inteqrasiyası vacibdir. Ümumilikdə, Azərbaycan modeli rəqəmsal dövlət quruculuğunda strateji və mərhələli inkişafın uğurlu nümunəsi kimi qiymətləndirilə bilər.

ƏDƏBİYYAT

1. United Nations. (2024). United Nations E-Government Survey 2024: Digital Government in the AI Era. New York: United Nations Department of Economic and Social Affairs. https://publicadministration.desa.un.org/sites/default/files/list-of-files/2024/Presentation%201_UNEGOVSURVEY_%202024_Workshop.pdf;
2. “Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı
3. Mergel, I. (2019). *Digital transformation: A conceptual framework*. Government Information Quarterly https://doi.org/10.1016/j.giq.2019.06.002;
4. https://desapublications.un.org;
5. https://e-qanun.az

Aytan Hasan Suleymanova
E-mail: hesenovaayten90@gmail.com

Parviz Ahmad Gurbanov
Associate Professor at the Department of
“Information Technologies in Public Administration”
Academy of Public Administration under the
President of the Republic of Azerbaijan
Doctor of Philosophy in Economics
E-mail: parviz.gurban@gmail.com

The Azerbaijani Model in State Digitalization Strategies

Summary

Research objective: The aim of the research is to analyze the theoretical and practical foundations of digital governance models, identify their advantages and assess the directions of digital development for Azerbaijan in the context of international experience.

Research methodology: Based on a systematic analysis of scientific sources, international reports and statistical data on digitalization and digital governance. Analytical, comparative and systematization approaches were applied, and Azerbaijan’s “E-Government Development Index” (EGDI) indicators were evaluated in comparison with international practice.

Practical significance of the research: The results of the research provide significant practical value for the development of digital transformation strategies, the selection of governance models, and the integration of digitalization into organizational structures. They can be particularly useful for identifying digital development priorities and supporting strategic decision-making.

Research findings: The results of the research indicate that digital governance models are among the main tools of transformation in modern administrative systems, and their application increases effectiveness in both the public and private sectors. Azerbaijan’s progress in EGDI indicators demonstrates the success of the country’s e-government policies; however, sustainable development requires strengthening digital skills and expanding the use of innovative technologies.

Originality and scientific novelty of the research: The scientific novelty of the study lies in the comprehensive systematization of digital governance models and the analysis of Azerbaijan’s digital development using a new analytical approach based on international assessments.

Key words: Digitalization, digital governance, e-government, digital transformation, EGDI.

Айтен Гасан кызы Сулейманова
E-mail: hesenovaayten90@gmail.com

Парвиз Ахмед Гурбанов
доцент кафедры “Информационные технологии
в государственном управлении”
Академия Государственного Управления при
Президенте Азербайджанской Республики
доктор философии по экономике
E-mail: parviz.gurban@gmail.com

Азербайджанская модель в стратегиях цифровизации государства

Резюме

Цель исследования: Цель исследования заключается в анализе теоретических и практических основ моделей цифрового управления, выявлении их преимуществ и оценке

направлений цифрового развития Азербайджана на фоне международного опыта.

Методология исследования: Исследование основано на систематическом анализе научных источников, международных отчетов и статистических данных по вопросам цифровизации и цифрового управления. В работе использовались аналитический, сравнительный и систематизирующий подходы, а показатели “Индекса развития электронного правительства” (EGDI) Азербайджана оценивались в сравнении с международной практикой.

Практическая значимость исследования: Результаты исследования имеют значительное практическое значение для разработки стратегий цифровой трансформации, выбора моделей управления и интеграции цифровизации в организационные структуры. Они могут быть особенно полезны при определении приоритетов цифрового развития и принятии стратегических решений.

Результаты исследования: Исследование показало, что модели цифрового управления являются ключевыми инструментами трансформации современных систем управления, а их применение повышает эффективность как государственного, так и частного сектора. Достижения Азербайджана по показателям EGDI демонстрируют успешность политики электронного правительства, однако для устойчивого развития требуется усиление цифровых компетенций и расширение применения инновационных технологий.

Оригинальность и научная новизна исследования: Научная новизна исследования заключается в комплексной систематизации моделей цифрового управления и анализе цифрового развития Азербайджана с использованием нового аналитического подхода на основе международных оценок.

Ключевые слова: цифровизация, цифровое управление, электронное правительство, цифровая трансформация, EGDI.

II BÖLMƏ
AZƏRBAYCANDA BANK SİSTEMİ, MALİYYƏ, İNVESTİSİYA PROBLEMLƏRİ

UOT: 336.71; 336.76 **JEL:** G21; G28; E58

Sahil Vidadi oğlu MURTUZAYEV
Azərbaycan Dövlət İqtisad Universiteti,
“İqtisadi nəzəriyyə” kafedrası, doktorant
E-mail: sahilmurtuzayevsh@gmail.com
https://doi.org/10.30546/4.71.730.02.2026.064

AZƏRBAYCANDA BANKLARIN SAĞLAMLAŞDIRMA MEXANİZMİ MODELİNİN SƏMƏRƏLİLİYİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

Xülasə

Tədqiqatın məqsədi – 2015-2025-ci illərdə Azərbaycanda bankların sağlamlaşdırma mexanizmi modelinin səmərəliliyini qiymətləndirmək və bu tədbirlərin bank sektorunun dayanıqlığına və real iqtisadiyyata xidmət imkanlarına təsirini izah etməkdir.

Tədqiqatın metodologiyası – tədqiqat elmi abstraksiya, müqayisəli təhlil, statistik analiz və institusional yanaşma metodlarına əsaslanır. Bank sektorunun dayanıqlıq göstəriciləri, sektor davranışı və institusional dəyişikliklər analitik şəkildə qiymətləndirilmişdir.

Tədqiqatın tətbiqi əhəmiyyəti – əldə olunan nəticələr bank sektorunda sağlamlaşdırma siyasətinin təkmilləşdirilməsi, problemli aktivlərin idarə olunması və prudensial nəzarətin effektivliyinin artırılması üçün praktik tövsiyələr təqdim edir.

Tədqiqatın nəticələri – tədqiqat göstərir ki, sağlamlaşdırma modeli bank sektorunda risklərin daha şəffaf görünməsinə, kapital və likvidlik dayanıqlığının güclənməsinə və prudensial nəzarət çərçivəsinin möhkəmlənməsinə xidmət etmişdir. Eyni zamanda kredit funksiyasının bərpası, sektor etimadının sabitləşməsi və institusional koordinasiya modelin həssas istiqamətləri kimi müəyyən edilmişdir.

Tədqiqatın orijinallığı və elmi yeniliyi – məqalədə bank sağlamlaşdırması modelinin effektivliyi yalnız maliyyə göstəriciləri ilə deyil, həm də sektor davranışı və institusional dəyişikliklər kontekstində kompleks şəkildə qiymətləndirilmişdir.

Açar sözlər: bankların sağlamlaşdırılması, maliyyə sabitliyi, prudensial nəzarət, problemli kreditlər, kapital dayanıqlığı, bank sektoru.

Giriş

2015–2025-ci illər dövrü Azərbaycanda bank sektorunun keyfiyyətcə yeni tənzimləmə mərhələsidir. Bu dövrdə bankların sağlamlaşdırılması yalnız ayrı-ayrı maliyyə institutlarının qorunması kimi deyil, sistemli risklərin azaldılması, maliyyə sabitliyinin qorunması və bank xidmətlərinin dayanıqlı bərpası kimi başa düşülmüşdür. Bank sektoru real iqtisadiyyatla sıx bağlı olduğundan, sağlamlaşdırma mexanizmlərinin effektivliyi kredit dövriyyəsinin sabitliyi, maliyyə vasitəçiliyinin dərinliyi və iqtisadi etimad mühiti üçün həlledici əhəmiyyət daşıyır [8, s. 17–19].

Bankların sağlamlaşdırılması mexanizmi maliyyə dayanıqlığını bərpa etməyə yönəlmiş alətlər sistemidir: prudensial nəzarətin sərtləşdirilməsi, kapitalın gücləndirilməsi, risklərin yenidən qiymətləndirilməsi, problemli aktivlərin idarə olunması, korporativ idarəetmənin təkmilləşdirilməsi, bazardan çıxarılma və birləşmə. Azərbaycan şəraitində bu mexanizmlər iki paralel istiqamətdə – zəif

seqmentlərin təmizlənməsi və maliyyə sabitliyinin qoruyucu dayaqlarının yaradılması – işləmişdir.

Mövcud ədəbiyyat sağlamlaşdırmanı iki əsas prizmayla izah edir: böhran idarəetməsində zərərin minimallaşdırılması strategiyası [17, s. 205–208] və institusional islahatların tərkib hissəsi. İkinci yanaşmada effektivlik risk mədəniyyətinin formalaşması, məlumat açıqlığının artması, kredit portfelinin keyfiyyəti və bazar etimadının bərpası ilə tamamlanır. İnkişaf etməkdə olan bazarlarda nəticələr dollarlaşma, maliyyə dərinliyi və tənzimləyici institutların imkanları kimi ölkəyə xas amillərdən asılıdır [5, s. 22–25].

Bu məqalənin məqsədi 2015–2025 dövründə Azərbaycanda bankların sağlamlaşdırma mexanizmi modelinin effektivliyini çoxölçülü yanaşma ilə qiymətləndirməkdir: modelin maliyyə dayanıqlığına, dayanıqlıq göstəricilərinə, sektor davranışına və institusional nəticələrinə təsirini ardıcıl şəkildə izah etmək. Məqalə modelin güclü tərəflərini və məhdudiyyətlərini sistemləşdirir; tənzimləyici siyasətin təkmilləşdirilməsi üçün praktik tövsiyələr irəli sürür.

Tədqiqatın aktuallığı bank sağlamlaşdırması qərarlarının yüksək xərc və risk daşımasından irəli gəlir. Zəif dizayn edilmiş tədbirlər resursların qeyri-effektiv bölgüsünə, moral hazard (mənəvi riskin) riskinin artmasına və bazar intizamının zəifləməsinə gətirib çıxara bilər. Düzgün qurulmuş sağlamlaşdırma çərçivəsi isə risklərin vaxtında tanınmasını, problemlərin dərinləşməsinin qarşısının alınmasını və bank sektorunun real sektora xidmət funksiyasının bərpasını mümkün edir.

Məqalənin elmi yeniliyi iki istiqamətdə formalaşır: bank sağlamlaşdırması modelinin vahid mexanizm kimi sistemləşdirilməsi (məqsəd, alət, nəticə əlaqəsinin ardıcıl qurulması) və effektivliyin yalnız maliyyə göstəriciləri ilə deyil, sektor davranışının və risk idarəetmə məntiqinin dəyişməsi kontekstində də qiymətləndirilməsi.

Sağlamlaşdırma mexanizminin nəzəri və institusional çərçivəsi

Bankların sağlamlaşdırılması maliyyə sisteminin dayanıqlığını bərpa etməyə yönəlmiş idarəetmə mexanizmidir. Bu mexanizm adətən böhran dövrləri ərzində aktivləşir. Məqsəd bankları qısa müddətdə normal rejimə qaytarmaq deyil, riskləri azaltmaq və sektorun əsas funksiyalarını – maliyyə vasitəçiliyi, ödənişlərin fasiləsizliyi, əmanətlərin qorunması – qorumaq və dayanıqlı şəkildə bərpa etməkdir.

Sağlamlaşdırma mexanizmi iki səviyyədə formalaşır. Bank daxilindəki dəyişikliklər – kapitalın artırılması, risk idarəetməsinin yenilənməsi, kredit siyasətinin sərtləşdirilməsi, likvidliyin idarə edilməsi, korporativ idarəetmənin təkmilləşdirilməsi. Sektor miqyasındakı qərarlar – nəzarətin gücləndirilməsi, problemli bankların konsolidasiyası, bazardan çıxarılma, sistemli bankların bərpası. Hər iki səviyyə bir-birini tamamlayır: daxili islahatlar xarici nəzarətsiz, xarici nəzarət isə daxili islahatlar olmadan real nəticə vermir [4, s. 12–14]. Sağlamlaşdırma alətləri dörd qrupa bölünür: (1) kapital bazasını gücləndirən alətlər – kapitalın artırılması, mənfəətin kapitallaşdırılması; (2) likvidliyi qoruyan alətlər; (3) aktiv keyfiyyətini yüksəldən alətlər – problemli kreditlərin tanınması, restrukturizasiya; (4) idarəetməni dəyişən alətlər – korporativ idarəetmə, daxili nəzarət, risk komitələri. Bu alətlər yalnız birlikdə işlədikdə davamlı effekt verir.

Sağlamlaşdırma siyasətinin məntiqi risk və məsuliyyət balansına söykənir: risk daşıyan tərəfin məsuliyyəti artırılmalı, zərərin sosiallaşdırılması minimumda saxlanmalı, moral hazard riski məhdudlaşdırılmalıdır. Azərbaycanda 2015–2025 dövrü üç əsas xətt boyunca inkişaf etdi: (1) prudensial tənzimləmənin güclənməsi – kapital adekvatlığı, likvidlik standartları, aktiv keyfiyyəti, məlumat açıqlığı tələblərinin sərtləşməsi; (2) sektorun struktur təmizlənməsi; (3) etimadın bərpası – şəffaflıq, sabit qaydalar, proqnozlaşdırılan siyasət.

Bu tədqiqatda effektivlik üç blok üzrə qiymətləndirilir: dayanıqlıq göstəriciləri (kapital, likvidlik, aktiv keyfiyyəti), sektor davranışı (kreditləşmə, depozit bazarı, valyuta davranışı) və institusional nəticələr (nəzarət çərçivəsi, şəffaflıq, idarəetmə standartları). Bu bloklar birlikdə modelin nəticəsini daha tam əks etdirir.

şərtlərin yerinə yetirilməsindən asılıdır. Tədqiqatın nəticələri həmçinin göstərir ki, qızıl, əmtəə və digər real aktiv əsaslı maliyyələşmə modelləri İslami maliyyə bazarlarının uzunmüddətli və dayanıqlı inkişafı üçün həm nəzəri, həm də praktiki səviyyədə əvəzolunmaz komponentlərdir. Bu baxımdan gələcək perspektivdə tənzimləyici çərçivələrin gücləndirilməsi, Şəriət standartlarının beynəlxalq səviyyədə daha yüksək dərəcədə uyğunlaşdırılması və aktiv əsaslı strukturların ikinci bazarlarda likvidliyinin artırılması əsas siyasət prioritetləri kimi ön plana çıxır.

ƏDƏBİYYAT

1. Ayub, M. (2017). Understanding Islamic Finance. Wiley. 2nd Edition, John Wiley & Sons, Chichester. s.149–155
2. Chapra, M. U. (2016). The Future of Economics: An Islamic Perspective. Islamic Foundation. s.80–83
3. Elasrag, H. (2020). Blockchain and Islamic Finance. International Journal of Economics and Finance, 12(3),
4. Furat, M. (2018). İslam Para Tarihi ve Dinar-Dirhem Sistemi. İslam İktisadı Dergisi, 5(2), s.77–99
5. Hasan, M., & Dridi, J. (2010). The Effects of the Global Crisis on Islamic and Conventional Banks. IMF Working Paper, WP/10/201. s.6–9
6. Iqbal, Z., & Mirakhor, A. (2017). Islamic Finance: Theory and Practice. Wiley. s.32–35; s.87–90
7. Mohamed, H., & Ali, S. S. (2022). *Blockchain, Tokenization and Islamic Finance: Opportunities and Shariah Challenges.* Routledge, London. 41–44.
8. Thomas, A. (2014). Innovation in Sukuk Structures. Islamic Finance Review. s.64–69
9. World Bank & International Islamic Financial Market (IIFM). (2024). *Global Sukuk Market Report.* s.27–31
10. Usmani, M. T. (2002). An Introduction to Islamic Finance. Kluwer Law International.
11. Wilson, R. (2008). Innovation in the Structuring of Islamic Sukuk Securities. Journal of Islamic Economic Studies, 15(1), s.47–69
12. Furat, A. (2018). İslam İktisat Tarihi: Para, Finans ve Piyasa Yapıları. İstanbul: İktisat Yayınları. s.97–104
13. Baur, D. G., & Lucey, B. M. (2010).Is gold a hedge or a safe haven An analysis of stocks, bonds and gold. The Financial Review. s. 217–229.
14. Калан Эбру // Применение зеленых финансов и зеленой экономики в исламских странах // Зеленая экономика: наука, образование и инновации спбгу 2024. 275 с.
15. Калан Эбру, Исламский банкинг Турции: новые тенденции и перспективы Оригинальная статья / Original article – 2023
16. www.cbar.az
17. https://maliyye.gov.az/;
18. https://www.gold.org

Эбру Халит Калан
Азербайджанского Государственного Экономического Университета- Докторант
E-mail:ebru.yondem@hotmail.com
ORCID: 0009-0008-5263-903X

Концептуальный анализ моделей финансирования, основанных на золоте и реальных активах, на глобальных рынках капитала с точки зрения исламских финансов

Резюме

Цель исследования –Основной целью данного исследования является концептуальный анализ моделей финансирования, основанных на золоте и других реальных активах, на

глобальных рынках капитала с точки зрения принципов исламских финансов, а также определение их роли в обеспечении шариатского соответствия, финансовой стабильности и связи с реальным сектором экономики.

Методология исследования – В рамках исследования использованы методы концептуально-теоретического анализа, сравнительного анализа, системного обзора научной литературы и нормативного подхода. Инструменты исламских финансов рассмотрены в сравнении с механизмами конвенциональных финансовых рынков, а также проанализированы существующие эмпирические и институциональные отчёты.

Практическая значимость исследования – Результаты исследования могут быть использованы исламскими финансовыми институтами, регулирующими органами рынков капитала, академическими исследователями и практикующими специалистами в качестве методологической основы для разработки и внедрения моделей финансирования, основанных на реальных активах.

Результаты исследования – Анализ показывает, что механизмы финансирования, основанные на золоте и товарных активах, в высокой степени соответствуют базовым принципам исламских финансов и способствуют снижению спекулятивных рисков. Инструменты, обеспеченные активами, такие как сукук, играют важную роль в финансировании реального сектора, а решения FinTech повышают эффективность и прозрачность данных моделей.

Оригинальность и научная новизна исследования–Исследование предлагает интегрированный концептуальный анализ моделей финансирования, основанных на реальных активах, в контексте глобальных рынков капитала с позиций исламских финансов. Впервые на системной основе оценивается взаимосвязь золота, сукук и цифровых технологий, а также предлагаются новые научные подходы к определению перспектив развития исламских финансов.

Ключевые слова: финансирование, основанное на золоте, товарное финансирование, финансирование, основанное на реальных активах, исламские финансы, беспроцентное финансирование, сукук недвижимости, управление ликвидностью, распределение рисков, финансовая стабильность, токенизация золота.

Ebru Halit Kalan
Doctoral Student at Azerbaijan State University of Economics (UNEC)
E-mail:ebru.yondem@hotmail.com
ORCID: 0009-0008-5263-903X

A Conceptual Analysis Of Gold- And Real Asset-Based Financing Models in Global Capital Markets From The Perspective Of Islamic Finance

Summary

Research Objective – The primary objective of this study is to conduct a conceptual analysis of financing models based on gold and other real assets in global capital markets from the perspective of Islamic finance principles, as well as to identify their role in ensuring Shariah compliance, financial stability, and linkage with the real economy.

Research Methodology –The study employs conceptual-theoretical analysis, comparative analysis, systematic review of the academic literature, and a normative approach. Islamic financial instruments are examined in comparison with conventional capital market mechanisms, while existing empirical and institutional reports are analytically evaluated.

Practical Implications –The findings of the study may be used by Islamic financial institutions, capital market regulators, academic researchers, and practitioners as a methodological foundation

for the design and implementation of real asset-based financing models.

Research Findings –The analysis demonstrates that gold- and commodity-based financing mechanisms are highly consistent with the fundamental principles of Islamic finance and contribute to the reduction of speculative risks. Asset-backed instruments such as sukuk play a significant role in financing the real sector, while FinTech solutions enhance the efficiency and transparency of these models.

Originality and Scientific Contribution –This study offers an integrated conceptual analysis of real asset-based financing models within the context of global capital markets from the perspective of Islamic finance. For the first time, the interrelationship between gold, sukuk, and digital technologies is systematically evaluated, and new scholarly approaches to identifying future development pathways of Islamic finance are proposed.

Key words: gold-based financing, commodity-based financing, real asset-based financing, Islamic finance, interest-free financing, real estate sukuk, liquidity management, risk sharing, financial stability, gold tokenization.

UOT 336

Turqut Müşfiq oğlu HƏSƏNLİ
Azərbaycan Kooperasiya Universitetinin
“Maliyyə (Bank işi)” ixtisaslaşmasının II kurs magistrantı
E-mail: hasanliturgut7@gmail.com

Elmi rəhbər: i.e.d. Elnurə Bünyat qızı MƏMMƏDOVA
Azərbaycan Kooperasiya Universitetinin
“Maliyyə və bank işi” kafedrasının professoru,
E-mail: mammadova-e@list.ru
https://doi.org/10.30546/4.71.730.02.2026.082

AZƏRBAYCANDA ELEKTRON BANK XİDMƏTLƏRİNİN RƏQABƏT QABİLİYYƏTİNİN ARTIRILMASI VƏ BEYNƏLXALQ PRAKTİKANIN TƏTBİQİ İMKANLARI ƏSASINDA İNKİŞAF İSTİQAMƏTLƏRİ

Xülasə

Tədqiqatın məqsədi - Azərbaycanda elektron bank xidmətlərinin rəqabət qabiliyyətinin artırılması istiqamətində beynəlxalq praktikanın tətbiqi imkanlarını müəyyənləşdirmək və bu sahədə inkişaf istiqamətlərini əsaslandırmaqdır.

Tədqiqatın metodologiyası - Tədqiqatın metodologiyası müqayisəli təhlil, sistemli yanaşma, statistik məlumatların təhlili və beynəlxalq təcrübənin öyrənilməsi əsasında aparılmışdır.

Tədqiqatın tətbiqi əhəmiyyəti ondan ibarətdir ki, əldə olunan nəticələr və irəli sürülən təkliflər Azərbaycanda elektron bank xidmətlərinin təkmilləşdirilməsi, rəqabət qabiliyyətinin artırılması və rəqəmsal bankçılıq strategiyalarının formalaşdırılması prosesində praktik əhəmiyyət kəsb edə bilər.

Tədqiqatın nəticələri - Beynəlxalq praktikanın tətbiqi, rəqəmsal infrastrukturun gücləndirilməsi, innovativ maliyyə texnologiyalarının inteqrasiyası və normativ-hüquqi bazanın təkmilləşdirilməsi Azərbaycanda elektron bank xidmətlərinin rəqabət qabiliyyətinin əhəmiyyətli dərəcədə artırılmasına və maliyyə bazarının dayanıqlı inkişafına şərait yarada bilər.

Tədqiqatın orjinallığı və elmi yeniliyi - Azərbaycanda elektron bank xidmətlərinin rəqabət qabiliyyəti ilk dəfə olaraq beynəlxalq praktikanın sistemli müqayisəli təhlili əsasında kompleks şəkildə qiymətləndirilmiş, qlobal təcrübəyə uyğun olaraq milli bank sektorunda tətbiq edilə biləcək konkret inkişaf istiqamətləri və institusional mexanizmlər elmi cəhətdən əsaslandırılmışdır.

Açar sözlər: elektron bankçılıq, rəqəmsal transformasiya, rəqabət qabiliyyəti, beynəlxalq praktika, fintex, açıq bankçılıq, maliyyə innovasiyaları.

Giriş

Məqalədə Azərbaycanda elektron bank xidmətlərinin mövcud vəziyyəti, inkişaf dinamikası və rəqabət qabiliyyətinə təsir edən əsas amillər təhlil edilir. Rəqəmsal transformasiya, fintex innovasiyaları, açıq bankçılıq modelləri və müştəriyönümlü xidmət strategiyaları kontekstində beynəlxalq praktikanın əsas istiqamətləri araşdırılır və onların milli bank sektorunda tətbiqi imkanları qiymətləndirilir.

Tədqiqat çərçivəsində inkişaf etmiş ölkələrin elektron bankçılıq təcrübəsi müqayisəli şəkildə təhlil olunur, texnoloji infrastrukturun gücləndirilməsi, kibertəhlükəsizliyin təmin edilməsi, rəqəmsal savadlılığın artırılması və normativ-hüquqi bazanın təkmilləşdirilməsi kimi prioritet istiqamətlər müəyyən edilir. Eyni zamanda, rəqabət mühitinin gücləndirilməsi və innovativ maliyyə xidmətlərinin genişləndirilməsi baxımından strateji yanaşmalar irəli sürülür.

Beləliklə, beynəlxalq praktikaya əsaslanan sistemli və mərhələli islahatların həyata keçirilməsi elektron bank xidmətlərinin keyfiyyətinin yüksəldilməsinə, maliyyə inklüzivliyinin genişlənmə-

sinə və Azərbaycan bank sektorunun qlobal maliyyə sisteminə inteqrasiyasının sürətlənməsinə şərait yarada bilər.

Azərbaycanda elektron bank xidmətlərinin mövcud vəziyyəti və inkişafı. Azərbaycanda elektron bank xidmətləri son illərdə sürətlə inkişaf edən maliyyə sektorunun ən mühüm komponentlərindən biri kimi çıxış edir. Rəqəmsal transformasiya prosesi bankların əməliyyat səmərəliliyini artırmaqla yanaşı, müştəri təcrübəsini yaxşılaşdırır və maliyyə xidmətlərinin əlçatanlığını genişləndirir. Ölkədə elektron bankçılığın inkişafı əsasən texnoloji infrastrukturun gücləndirilməsi, bankların rəqəmsal strategiyalara yönəlməsi və müştəri ehtiyaclarına cavab verən innovativ məhsulların təqdim olunması ilə əlaqədardır. Son onillikdə Azərbaycanda maliyyə texnologiyaları (fintex) sektorunun inkişafı bank xidmətlərinin daha çevik və operativ olmasına imkan yaratmışdır.

Azərbaycan Mərkəzi Bankının (AMB) dəstəyi ilə həyata keçirilən rəqəmsal təşəbbüslər elektron ödəniş sistemlərinin genişlənməsinə, mobil bankçılıq xidmətlərinin istifadəsinin artmasına və onlayn əməliyyatların təhlükəsizliyinin yüksəldilməsinə təkan vermişdir. Xüsusilə son illərdə mobil tətbiqlər vasitəsilə müştərilər öz hesablarını idarə etmək, ödənişləri həyata keçirmək və kredit əməliyyatlarını onlayn şəkildə yerinə yetirmək imkanına malik olmuşlar. Bu isə bankların əməliyyat xərclərinin azalmasına və eyni zamanda müştəri məmnuniyyətinin artmasına səbəb olmuşdur. Azərbaycan bank sistemində elektron xidmətlərin inkişafı həm də ölkədə maliyyə inklüzivliyinin artırılması baxımından böyük əhəmiyyət kəsb edir. Rəqəmsal bankçılıq kənd və qəsəbə ərazilərində yaşayan əhalinin maliyyə xidmətlərinə çıxışını asanlaşdırır, bu isə iqtisadi fəaliyyətin stimullaşdırılmasına və əhali gəlirlərinin artmasına təsir göstərir. Elektron bank xidmətləri vasitəsilə fərdi və korporativ müştərilər müxtəlif ödənişləri, transferləri və investisiya əməliyyatlarını daha sürətli və təhlükəsiz şəkildə həyata keçirə bilirlər. Bu xidmətlərin keyfiyyətinin yüksəldilməsi bankların rəqabət qabiliyyətini artırmaqla yanaşı, milli maliyyə sisteminin dayanıqlığını da təmin edir. Azərbaycanda elektron bank xidmətlərinin mövcud vəziyyəti ilə bağlı rəsmi statistika göstərir ki, ölkədə nağdsız ödənişlərin və rəqəmsal əməliyyatların həcmi əhəmiyyətli şəkildə artmaqdadır: 2025-ci ilin yanvar ayında nağdsız ödənişlərin həcmi təxminən 6,9 milyard manat təşkil edərək bir il əvvəlki dövrə nisbətən 40 % artmışdır ki, bunun da böyük hissəsi e-ticarət əməliyyatlarına aiddir. Eyni zamanda, Azərbaycanda dövriyyədə olan ödəniş kartlarının sayı təxminən 20,2 milyonadək yüksələrək ötən illə müqayisədə artmış, bu da rəqəmsal bank xidmətlərinə tələbatın yüksəldiyini göstərir (AMB, 2025).[4]

Ölkədə elektron bank xidmətlərinin inkişafında əsas rol oynayan amillərdən biri də hüquqi və normativ bazanın təkmilləşdirilməsidir. Azərbaycan hökuməti və Mərkəzi Bank ölkədə rəqəmsal ödənişlərin təşviqi, elektron imzanın tətbiqi və informasiya təhlükəsizliyi standartlarının gücləndirilməsi istiqamətində bir sıra qanunvericilik aktlarını qəbul etmişdir. Bu qanunvericilik çərçivəsi bankların innovativ texnologiyaları tətbiq etməsinə və müştəri məlumatlarının qorunmasına şərait yaradır. Eyni zamanda, bank sektorunda rəqəmsal xidmətlərin inkişafını təşviq edən proqram və layihələr, o cümlədən maliyyə texnologiyaları inkubatorları və startap dəstək proqramları ölkədə elektron bankçılığın sürətli inkişafına imkan yaradır.

Texnoloji baxımdan, Azərbaycanda banklar müxtəlif rəqəmsal həllər tətbiq edirlər. Bunlar arasında internet bankçılığı platformaları, mobil tətbiqlər, SMS-banking və POS-terminallar geniş istifadə olunur. Son illərdə kriptovalyuta və blockchain texnologiyalarının təcrübə səviyyəsində tətbiqi də diqqət çəkir. Banklar müştəri məlumatlarının təhlükəsizliyini təmin etmək üçün iki faktorlu identifikasiya, biometriya və digər müasir autentifikasiya metodlarından istifadə etməyə başlamışlar. Bu texnoloji yeniliklər əməliyyatların sürətini artırmaqla yanaşı, elektron bank xidmətlərinə etimadı da gücləndirir.

Müştəri baxımından elektron bank xidmətlərinin populyarlığının artması bir sıra sosial və iqtisadi amillərlə bağlıdır. İnsanların rəqəmsal savadlılığının yüksəlməsi, smartfon və internet istifadəçilərinin sayının artması elektron xidmətlərə tələbatı artırır [2,s.30]. Xüsusilə gənc və orta yaşlı əhali qrupu bank xidmətlərini mobil tətbiqlər vasitəsilə həyata keçirməyə üstünlük verir. Bu isə bankları innovativ həllər hazırlamağa və müştəri yönümlü strategiyalar qurmağa sövq edir.

Eyni zamanda, elektron bank xidmətləri müəssisələr üçün əməliyyatların sürətini və maliyyə idarəetməsini optimallaşdırır, kiçik və orta biznesin maliyyə əməliyyatlarını daha effektiv şəkildə idarə etməsinə imkan yaradır.

Bununla belə, Azərbaycanda elektron bankçılığın inkişafı bəzi çətinliklər və məhdudiyyətlərlə üzləşir. Əsas problemlərdən biri kibertəhlükəsizlik risklərinin yüksək olmasıdır. Banklar elektron əməliyyatların təhlükəsizliyini təmin etmək üçün əlavə resurslar sərf etməli, həmçinin müştəriləri informasiya təhlükəsizliyi sahəsində maarifləndirməlidirlər. Digər bir çətinlik isə ölkədə bəzi ərazilərdə internet infrastrukturunun kifayət qədər inkişaf etməməsi və rəqəmsal savadlılığın aşağı səviyyədə olmasıdır. Bu amillər elektron bank xidmətlərinin universal yayılmasına müəyyən maneələr törədir.

Ümumiyyətlə, Azərbaycanda elektron bank xidmətlərinin inkişafı dinamik və perspektivlidir. Banklar rəqəmsal texnologiyalara investisiyalarını artırır, yeni məhsul və xidmətlər təqdim edir, müştəri təcrübəsini optimallaşdırır və əməliyyatların səmərəliliyini yüksəldir. Bu inkişaf həm də ölkədə maliyyə inklüzivliyinin, iqtisadi effektivliyin və rəqabət qabiliyyətinin artırılmasına xidmət edir. Elektron bankçılığın gələcək inkişaf perspektivləri arasında süni intellektin tətbiqi, blockchain texnologiyalarının genişləndirilməsi, açıq bankçılıq modellərinin inkişafı və maliyyə texnologiyaları ekosisteminin yaradılması mühüm rol oynayacaq.

Azərbaycanda elektron bank xidmətlərinin mövcud vəziyyəti və inkişafı həm milli bank sektorunun modernləşdirilməsinə, həm də müştərilərin maliyyə əməliyyatlarını daha çevik, təhlükəsiz və rahat şəkildə həyata keçirməsinə imkan yaradır. Rəqəmsal transformasiya bankçılıq xidmətlərinin keyfiyyətini artırmaqla yanaşı, ölkənin qlobal maliyyə bazarına inteqrasiyasını da sürətləndirir. Eyni zamanda, hüquqi, texnoloji və sosial amillərin kompleks şəkildə inkişaf etdirilməsi elektron bankçılığın dayanıqlı və inklüziv olmasını təmin edir.

Beynəlxalq təcrübə əsasında elektron bank xidmətlərinin rəqabət qabiliyyətinin artırılması imkanları. Beynəlxalq təcrübə elektron bank xidmətlərinin inkişafı və rəqabət qabiliyyətinin artırılması sahəsində mühüm rol oynayır. Dünya üzrə inkişaf etmiş maliyyə sistemlərində elektron bankçılıq müştəri yönümlü və innovativ yanaşmalar əsasında formalaşır. Bu təcrübə banklara əməliyyat xərclərini azaltmaq, xidmətlərin sürətini artırmaq və müştəri məmnuniyyətini yüksəltmək imkanı verir. Bir sıra Avropa, Asiya və Şimali Amerika ölkələrinin bank sektorunda tətbiq edilən rəqəmsal həllər Azərbaycan bank sistemi üçün praktik və səmərəli modellər təqdim edir. İnkişaf etmiş ölkələrdə elektron bank xidmətlərinin əsas xüsusiyyəti onların çevikliyi və fərdiləşdirilmiş xidmətlərin təqdim edilməsidir [1,s.51]. Məsələn, ABŞ və Avropa ölkələrində mobil bankçılıq tətbiqləri vasitəsilə müştərilər hesablarını idarə etmək, ödəniş və transfer əməliyyatlarını həyata keçirmək, investisiya portfellərini izləmək imkanına malikdir. Bu ölkələrdə banklar süni intellekt və böyük məlumatların analizi (big data) texnologiyalarını tətbiq edərək müştəri davranışlarını proqnozlaşdırır və fərdi təkliflər təqdim edir. Bu yanaşma elektron bank xidmətlərinin rəqabət qabiliyyətini artırmaqla yanaşı, müştəri sadiqliyini də gücləndirir.

Asiya ölkələrində, xüsusən Çin və Sinqapurda, elektron bank xidmətlərinin inkişafında fintech şirkətləri və böyük texnologiya platformaları mühüm rol oynayır. Banklar bu ölkələrdə öz xidmətlərini mobil tətbiqlər və onlayn platformalar vasitəsilə genişləndirərək əməliyyatların sürətini artırır və xidmət çeşidini çoxaldırlar. Elektron ödəniş sistemlərinin universal tətbiqi, QR kodları vasitəsilə ödənişlərin həyata keçirilməsi və rəqəmsal cüzdanların istifadəsi müştərilərə operativ və rahat xidmət təqdim edir. Bu təcrübə göstərir ki, texnoloji yeniliklərin sürətli tətbiqi bankların rəqabət qabiliyyətini əhəmiyyətli dərəcədə yüksəldir.

Avropa ölkələrində açıq bankçılıq (open banking) modeli elektron bank xidmətlərinin inkişafında əsas trend kimi qiymətləndirilir. Açıq bankçılıq müştərilərin məlumatlarının təhlükəsiz şəkildə paylaşılmasına və üçüncü tərəf xidmət təminatçıları ilə inteqrasiya olunmuş həllərin tətbiqinə imkan verir. Bu model bankların rəqabət qabiliyyətini artırmaqla yanaşı, maliyyə xidmətləri ekosistemini genişləndirir və innovasiyaların sürətli tətbiqinə şərait yaradır. Açıq bankçılıq modeli həmçinin fərdi və korporativ müştərilərə müxtəlif xidmətlər təqdim etməyə imkan verir,

bu da bankların bazar payını artırmaq və yeni müştəri seqmentlərini cəlb etmək potensialını yüksəldir.

Beynəlxalq təcrübə göstərir ki, elektron bank xidmətlərinin rəqabət qabiliyyətinin artırılması üçün texnoloji infrastrukturun gücləndirilməsi vacibdir. Bu çərçivədə banklar bulud texnologiyalarından istifadə edir, əməliyyatların sürətini artırır və məlumatların qorunmasını təmin edir. Kibertəhlükəsizlik sahəsində beynəlxalq standartların tətbiqi müştəri məlumatlarının təhlükəsizliyini təmin edir və banklara etimadın artmasına imkan yaradır. Həmçinin, süni intellekt və maşın öyrənməsi texnologiyalarının tətbiqi bank əməliyyatlarının optimallaşdırılmasını, risklərin proqnozlaşdırılmasını və müştəri xidmətlərinin fərdiləşdirilməsini təmin edir. Beynəlxalq təcrübədən öyrənilən əsas dərslərdən biri də innovativ məhsul və xidmətlərin davamlı inkişafıdır. Avropa və ABŞ bankları rəqəmsal kredit, onlayn investisiya, virtual ödəniş kartları, avtomatlaşdırılmış məsləhət xidmətləri kimi həllər təqdim edərək rəqabət üstünlüyü qazanırlar. Bu xidmətlər bankların əməliyyatlarını optimallaşdırmaqla yanaşı, müştərilərin sadiqliyini artırır və bazar payını genişləndirir. Azərbaycanda bu təcrübənin tətbiqi banklara daha çevik, müasir və rəqabətcil xidmətlər göstərməyə imkan verə bilər.

Beynəlxalq praktikanın digər mühüm istiqaməti rəqəmsal maliyyə ekosistemlərinin formalaşdırılmasıdır. Bu model bankların, fintech şirkətlərinin və digər maliyyə xidmətləri təminatçılarının inteqrasiyasını nəzərdə tutur. Belə ekosistemlər innovasiyaların sürətlə tətbiqini, əməliyyatların sürətlənməsini və müştəri məmnuniyyətinin artmasını təmin edir. Çin, Sinqapur və bir sıra Avropa ölkələrində bu yanaşma rəqabət qabiliyyətini əhəmiyyətli dərəcədə gücləndirir və bankları qlobal bazarda rəqabətə hazırlayır.

Beynəlxalq təcrübə həmçinin normativ-hüquqi bazanın əhəmiyyətini göstərir. Elektron bank xidmətlərinin inkişafı üçün açıq və şəffaf qanunvericilik, elektron imza və məlumatların qorunması sahəsində standartların tətbiqi vacibdir. Bu amil bankların innovativ həllər tətbiq etməsinə, müştəri məlumatlarını qorumasına və əməliyyatların təhlükəsizliyini təmin etməsinə imkan verir. Azərbaycanda beynəlxalq təcrübəyə uyğun normativ-hüquqi tədbirlərin tətbiqi bank sektorunun rəqabət qabiliyyətinin artırılmasına birbaşa təsir göstərə bilər.

Beynəlxalq təcrübədən çıxarılan digər mühüm nəticə müştəri yönümlü yanaşmanın vacibliyidir. Banklar xidmətlərini müştəri ehtiyaclarına uyğun fərdiləşdirdikdə rəqabət üstünlüyü əldə edirlər. Süni intellekt, big data və analitik alətlərin tətbiqi müştəri davranışlarını proqnozlaşdırmağa, xidmətləri fərdiləşdirməyə və əməliyyatları optimallaşdırmağa imkan verir. Bu yanaşma bankların bazar payını artırmaqla yanaşı, maliyyə xidmətlərinin səmərəliliyini də yüksəldir.

Ümumiyyətlə, beynəlxalq təcrübə göstərir ki, elektron bank xidmətlərinin rəqabət qabiliyyətinin artırılması üçün bir neçə strateji istiqamət var. Bunlar arasında texnoloji infrastrukturu gücləndirmək, açıq bankçılıq və rəqəmsal ekosistem modellərini tətbiq etmək, kibertəhlükəsizlik və məlumat qorunması sahəsində beynəlxalq standartlara əməl etmək, innovativ məhsul və xidmətləri davamlı inkişaf etdirmək və müştəri yönümlü strategiyalar tətbiq etmək əsas rol oynayır. Bu yanaşmalar Azərbaycan bank sektorunda da rəqabət qabiliyyətinin artırılması üçün praktik və effektiv imkanlar yaradır. Nəticə etibarilə, beynəlxalq təcrübəyə əsaslanan yanaşmalar Azərbaycanın elektron bank xidmətlərinin inkişafında strateji əhəmiyyət kəsb edir. Texnoloji innovasiyaların sürətli tətbiqi, açıq bankçılıq modelinin inteqrasiyası, müştəri yönümlü xidmətlərin təşviqi və normativ-hüquqi bazanın gücləndirilməsi rəqabət qabiliyyətinin yüksəldilməsi üçün vacib addımlar hesab olunur. Bu imkanların düzgün tətbiqi Azərbaycan bank sektorunun modernləşdirilməsinə, maliyyə inklüzivliyinin artırılmasına və qlobal maliyyə bazarında rəqabət qabiliyyətinin gücləndirilməsinə şərait yaradacaqdır.

Azərbaycan bank sektorunda elektron xidmətlərin inkişaf istiqamətləri və strategiyaların tətbiqi. Azərbaycan bank sektorunda elektron xidmətlərin inkişaf istiqamətləri ölkədə maliyyə sisteminin modernləşdirilməsi, rəqabət qabiliyyətinin artırılması və müştəri yönümlü xidmətlərin genişləndirilməsi baxımından strateji əhəmiyyət kəsb edir. Son illərdə ölkədə rəqəmsal bankçılığın inkişafı sürətləndikcə, banklar müxtəlif strategiyaları tətbiq edərək əməliyyat səmərəliliyini

artırmaq, müştəri bazasını genişləndirmək və innovativ xidmətlər təqdim etmək imkanına malik olurlar. Elektron xidmətlərin inkişafı həmçinin ölkədə maliyyə inklüzivliyinin genişləndirilməsinə, kənd və qəsəbə ərazilərində yaşayan əhalinin maliyyə xidmətlərinə çıxışının təmin olunmasına və bank sektorunun dayanıqlığının gücləndirilməsinə xidmət edir [3, s.62].

Elektron xidmətlərin inkişaf istiqamətləri çərçivəsində ilk növbədə texnoloji infrastrukturun gücləndirilməsi vacib amil kimi çıxış edir. Banklar öz IT sistemlərini müasir tələblərə uyğunlaşdıraraq əməliyyatların sürətini artırmaq, məlumatların təhlükəsizliyini təmin etmək və xidmət çeşidini genişləndirmək imkanı əldə edirlər. Bu istiqamətdə bulud texnologiyaları, böyük məlumatların analizi və süni intellekt tətbiqləri geniş istifadə olunur. Texnologiyanın inkişafı nəticəsində müştərilər mobil bank tətbiqləri, internet bankçılığı, SMS-banking və POS-terminallar vasitəsilə əməliyyatları daha sürətli və rahat həyata keçirə bilirlər.

İkinci strateji istiqamət normativ-hüquqi bazanın təkmilləşdirilməsidir. Azərbaycan hökuməti və Mərkəzi Bank ölkədə rəqəmsal maliyyə xidmətlərinin inkişafı üçün bir sıra qanunvericilik aktlarını qəbul etmiş, elektron imzanın tətbiqi, məlumatların qorunması və kibertəhlükəsizlik standartlarının gücləndirilməsi istiqamətində addımlar atmışdır. Bu normativ baza banklara innovativ həlləri tətbiq etmək, müştəri məlumatlarının təhlükəsizliyini təmin etmək və əməliyyatların şəffaflığını qorumaq imkanını verir. Hüquqi və normativ dəstəyin gücləndirilməsi bankların elektron xidmətlərinin inkişafında strateji rol oynayır.

Üçüncü istiqamət müştəri yönümlü strategiyaların tətbiqidir. Banklar xidmətlərini müştərilərin ehtiyaclarına uyğun fərdiləşdirərək rəqabət üstünlüyü əldə edə bilirlər. Müştəri davranışlarının analizi, süni intellektin tətbiqi və fərdiləşdirilmiş təkliflərin hazırlanması bankların sadiq müştəri bazası yaratmasına imkan verir. Həm fərdi, həm də korporativ müştərilər üçün hazırlanmış innovativ məhsullar bankların bazar payını artırır, əməliyyat səmərəliliyini yüksəldir və xidmətlərin keyfiyyətini təkmilləşdirir.

Dördüncü strateji istiqamət rəqəmsal ekosistemlərin inkişafıdır. Banklar fintech şirkətləri, ödəniş platformaları və digər maliyyə xidmətləri təminatçıları ilə inteqrasiya olunmuş həllər tətbiq etməklə innovativ ekosistemlər yaradırlar. Bu ekosistemlər əməliyyatların sürətini artırır, innovasiyaların tətbiqini sürətləndirir və müştəri məmnuniyyətini yüksəldir. Azərbaycanda bu modelin tətbiqi bankların rəqabət qabiliyyətini artırmaqla yanaşı, maliyyə xidmətlərinin müxtəlifliyini və əlçatanlığını genişləndirir.

Beynəlxalq təcrübəyə əsaslanan beşinci istiqamət açıq bankçılığın tətbiqidir. Açıq bankçılıq müştəri məlumatlarının təhlükəsiz şəkildə üçüncü tərəf xidmət təminatçıları ilə paylaşılmasına imkan verir. Bu model banklara yeni innovativ xidmətlər təqdim etməyə, müştəri yönümlü həllər yaratmağa və bazar payını artırmağa şərait yaradır. Azərbaycanda açıq bankçılıq konsepsiyasının tətbiqi elektron bank xidmətlərinin rəqabət qabiliyyətini yüksəldərək sektorun qlobal tendensiyalara inteqrasiyasını təmin edə bilər.

Səkkizinci istiqamət əməliyyat təhlükəsizliyinin və kibertəhlükəsizlik tədbirlərinin gücləndirilməsidir. Elektron bank xidmətləri ilə bağlı risklərin idarə olunması, məlumatların qorunması və əməliyyatların təhlükəsizliyinin təmin olunması bankların etimadını artırır. Müştərilərin məlumatlarının qorunması və əməliyyatların təhlükəsizliyi üzrə beynəlxalq standartların tətbiqi bankların rəqabət qabiliyyətini yüksəldir və elektron xidmətlərin geniş tətbiqini təşviq edir.

Bank sektorunda elektron xidmətlərin inkişafı həmçinin innovativ maliyyə məhsullarının təqdimatı ilə sıx bağlıdır. Rəqəmsal kredit, virtual ödəniş kartları, onlayn investisiya platformaları və avtomatlaşdırılmış məsləhət xidmətləri müştərilərə daha çevik və rahat xidmət təqdim edir. Bu məhsulların tətbiqi bankların əməliyyat xərclərini azaltmaqla yanaşı, rəqabət üstünlüyü qazanmasına və bazar payını artırmasına kömək edir. Azərbaycanda bu yanaşmanın tətbiqi sektorda rəqəmsal innovasiyaların sürətli inkişafını təmin edə bilər. Bank sektorunda elektron xidmətlərin inkişaf istiqamətləri həmçinin müştəri təhsilini və rəqəmsal savadlılığın artırılmasını nəzərdə tutur. Müştərilərin elektron xidmətlərdən təhlükəsiz və səmərəli istifadəsini təmin etmək üçün banklar maarifləndirmə kampaniyaları, onlayn təlimlər və informasiya dəstəyi proqramları həyata keçirirlər.

Bu tədbirlər elektron bank xidmətlərinə etimadı artırır və rəqabət qabiliyyətini gücləndirir. Azərbaycan bank sektorunda elektron xidmətlərin inkişaf istiqamətləri texnoloji infrastrukturun gücləndirilməsi, normativ-hüquqi bazanın təkmilləşdirilməsi, müştəri yönümlü strategiyaların tətbiqi, rəqəmsal ekosistemlərin formalaşdırılması, açıq bankçılıq modellərinin tətbiqi, kibertəhlükəsizlik tədbirlərinin gücləndirilməsi, innovativ məhsul və xidmətlərin təqdimatı və müştəri təhsilinin artırılması istiqamətlərini əhatə edir. Bu istiqamətlərin kompleks şəkildə həyata keçirilməsi bankların rəqabət qabiliyyətini yüksəldir, xidmətlərin keyfiyyətini artırır və ölkənin maliyyə sektorunun dayanıqlı inkişafına xidmət edir.

Azərbaycan bankları tərəfindən bu strategiyaların tətbiqi elektron xidmətlərin universal yayılmasına, maliyyə inklüzivliyinin artırılmasına və sektorun qlobal maliyyə bazarına inteqrasiyasına şərait yaradacaqdır. Texnoloji innovasiyalar, hüquqi dəstək və müştəri yönümlü yanaşmalar bank sektorunun rəqabət qabiliyyətini yüksəldərək iqtisadi səmərəliliyi artırmaqla yanaşı, ölkənin maliyyə sistemini müasir standartlara uyğunlaşdırır.

Nəticə

Azərbaycanda elektron bank xidmətlərinin inkişafı və rəqabət qabiliyyətinin artırılması ölkənin maliyyə sektorunun modernləşdirilməsi, iqtisadi səmərəliliyin yüksəldilməsi və maliyyə inklüzivliyinin genişləndirilməsi baxımından strateji əhəmiyyətə malikdir. Tədqiqatın nəticələri göstərir ki, elektron bank xidmətlərinin keyfiyyətli inkişafı yalnız texnoloji yeniliklərin tətbiqi ilə məhdudlaşmır, eyni zamanda hüquqi-normativ baza, müştəri yönümlü strategiyalar, kibertəhlükəsizlik tədbirləri və beynəlxalq praktikanın sistemli tətbiqi ilə sıx bağlıdır. Azərbaycanda bank sektorunda tətbiq olunan rəqəmsal həllər əməliyyatların sürətini və səmərəliliyini artırmaqla yanaşı, müştəri məmnuniyyətinin yüksəldilməsinə və bankların rəqabət qabiliyyətinin gücləndirilməsinə şərait yaradır.

Tədqiqat göstərir ki, beynəlxalq təcrübəyə əsaslanan yanaşmaların tətbiqi Azərbaycan banklarının rəqəmsal transformasiyasını sürətləndirə və onları qlobal maliyyə bazarında daha rəqabətcil edə bilər. ABŞ, Avropa və Asiya ölkələrinin təcrübəsi göstərir ki, elektron bank xidmətlərinin rəqabət qabiliyyəti əsasən müştəri yönümlü yanaşma, innovativ məhsul və xidmətlərin davamlı inkişafı, süni intellekt və böyük məlumatların analizi, açıq bankçılıq modelləri və rəqəmsal ekosistemlərin yaradılması ilə təmin edilir. Bu təcrübə Azərbaycan bankları üçün də praktik model rolunu oynayır və milli bank sektorunun modernləşdirilməsində istiqamətləri müəyyənləşdirir.

Məqalə çərçivəsində əldə olunan nəticələr göstərir ki, texnoloji infrastrukturun gücləndirilməsi bankların əməliyyat səmərəliliyini artırır və xidmətlərin keyfiyyətini yüksəldir. Bulud texnologiyaları, mobil bankçılıq tətbiqləri, POS-terminallar və internet bankçılığı sistemlərinin tətbiqi müştərilərə operativ və rahat xidmət təqdim etməyə imkan verir. Eyni zamanda, kibertəhlükəsizlik tədbirlərinin gücləndirilməsi banklara müştəri məlumatlarını qorumağa və əməliyyatların təhlükəsizliyini təmin etməyə şərait yaradır. Bu isə elektron bank xidmətlərinə olan etimadı gücləndirir və sektorda rəqabət üstünlüyü yaradır.

Tədqiqat nəticəsində həmçinin normativ-hüquqi bazanın əhəmiyyəti müəyyən edilmişdir. Azərbaycanda rəqəmsal bank xidmətlərinin inkişafı üçün qanunvericilik bazasının təkmilləşdirilməsi, elektron imza və məlumatların qorunması sahəsində beynəlxalq standartlara uyğun tədbirlərin həyata keçirilməsi bank sektorunun dayanıqlılığını artırır. Hüquqi dəstəyin gücləndirilməsi banklara innovativ həlləri tətbiq etmək və əməliyyatların şəffaflığını təmin etmək imkanı verir. Bu, həm də ölkənin maliyyə sistemində rəqabət qabiliyyətinin yüksəldilməsi üçün vacib strateji amildir. Müştəri yönümlü strategiyaların tətbiqi elektron bank xidmətlərinin inkişafında əsas rol oynayır. Süni intellekt və analitik alətlərdən istifadə edərək müştəri davranışlarını proqnozlaşdırmaq, fərdiləşdirilmiş məhsul və xidmətlər təqdim etmək bankların sadiq müştəri bazası yaratmasına imkan verir. Bu yanaşma müştəri məmnuniyyətini artırmaqla yanaşı, bankların bazar payını genişləndirir və rəqabət üstünlüyü təmin edir. Həm fərdi, həm də korporativ müştərilər üçün hazırlanan innovativ həllər əməliyyatların səmərəliliyini yüksəldir və maliyyə xidmətlərinin əlçatanlığını artırır.

Tədqiqat həmçinin elektron xidmətlərin inkişafında rəqəmsal ekosistemlərin rolunu vurğulayır. Bankların fintech şirkətləri və digər maliyyə xidmətləri təminatçıları ilə inteqrasiyası innovativ həllərin tətbiqini sürətləndirir, əməliyyatların sürətini artırır və xidmətlərin çeşidini genişləndirir. Bu ekosistem modeli bankların rəqabət qabiliyyətini gücləndirir və maliyyə xidmətlərinin müxtəlifliyini təmin edir. Azərbaycanın bu modeldən öyrənərək tətbiq imkanları mövcuddur və bu, sektorda rəqəmsal innovasiyaların sürətlə inkişafına şərait yarada bilər.

Açıq bankçılıq konsepsiyası da tədqiqatın nəticələrinə əsasən elektron bank xidmətlərinin rəqabət qabiliyyətini artıran mühüm amildir. Açıq bankçılıq müştəri məlumatlarının təhlükəsiz şəkildə üçüncü tərəf xidmət təminatçıları ilə paylaşılmasına imkan verir və banklara yeni xidmətlər təqdim etmək, innovativ həllər yaratmaq və bazar payını artırmaq imkanı yaradır. Bu yanaşma Azərbaycan bank sektorunda tətbiq olunduqda rəqəmsal transformasiyanı sürətləndirəcək və sektorun qlobal maliyyə bazarına inteqrasiyasını təmin edəcəkdir.Elektron bank xidmətlərinin inkişafı yalnız texnoloji yeniliklər və innovativ məhsullarla məhdudlaşmır, eyni zamanda hüquqi baza, kibertəhlükəsizlik, müştəri yönümlü strategiyalar, açıq bankçılıq və rəqəmsal ekosistemlərin kompleks şəkildə inkişaf etdirilməsini tələb edir. Bu istiqamətlərin sistemli tətbiqi bank sektorunun rəqabət qabiliyyətini yüksəldir, xidmətlərin keyfiyyətini artırır və milli maliyyə sisteminin dayanıqlığını təmin edir.

Azərbaycan bank sektorunda elektron xidmətlərin inkişafı həm də ölkədə maliyyə inklüzivliyinin genişləndirilməsi baxımından əhəmiyyətlidir. Kənd və qəsəbə ərazilərində yaşayan əhalinin rəqəmsal xidmətlərə çıxışı, əməliyyatların sürətli və təhlükəsiz həyata keçirilməsi maliyyə bazarının effektivliyini artırır. Bu isə iqtisadi fəaliyyətin stimullaşdırılmasına və əhali gəlirlərinin artmasına birbaşa təsir göstərir.

Ümumilikdə, tədqiqat nəticələri göstərir ki, beynəlxalq təcrübəyə əsaslanan strategiyaların tətbiqi Azərbaycan bank sektorunun rəqabət qabiliyyətinin artırılması, innovativ xidmətlərin genişləndirilməsi və rəqəmsal transformasiyanın sürətləndirilməsi üçün əsas vasitədir. Texnoloji innovasiyaların tətbiqi, normativ-hüquqi dəstək, müştəri yönümlü yanaşmalar və rəqəmsal ekosistemlərin inkişafı ölkədə elektron bank xidmətlərinin keyfiyyətinin yüksəldilməsinə, əməliyyatların səmərəliliyinin artırılmasına və sektorun dayanıqlı inkişafına şərait yaradacaqdır.

ƏDƏBİYYAT

1. Bağırov M.M. Banklar və bank əməliyyatları. Bakı, 2003.
2. Sadıqov E.M. Bank əməliyyatları, Bakı, 2010.
3. Tağıyev X.R., Rüstəmov T.H. Rəqəmsal ödənişlər və elektron bankçılıq xidmətləri. Bakı, 2020.
4. https://www.cbar.az/pg

Тургут Мушфик оглы Гасанлы
магистрант 2 курса по специальности
“Финансы (банковское дело)”
Азербайджанского Университета Кооперации
E-mail: hasanliturgut7@gmail.com

Научный руководитель:
д.э.н., профессор Эльнура Буният кызы Мамедова
Азербайджанского Университета Кооперации
E-mail: mammadova-e@list.ru

Повышение конкурентоспособности электронных банковских услуг в Азербайджане и перспективы их развития на основе применения международной практики

Резюме

В статье анализируется текущее состояние электронных банковских услуг в Азербайджане, динамика их развития и основные факторы, влияющие на конкурентоспособность. В

контексте цифровой трансформации, инноваций финтех, моделей открытого банкинга и стратегий обслуживания, ориентированных на клиента, рассматриваются ключевые направления международной практики и оцениваются возможности их применения в национальном банковском секторе.

В рамках исследования сравнительно анализируется опыт электронного банкинга развитых стран, выделяются приоритетные направления, такие как усиление технологической инфраструктуры, обеспечение кибербезопасности, повышение цифровой грамотности и совершенствование нормативно-правовой базы. Одновременно выдвигаются стратегические подходы к укреплению конкурентной среды и расширению инновационных финансовых услуг.

Таким образом, системное и поэтапное внедрение реформ, основанных на международной практике, может способствовать повышению качества электронных банковских услуг, расширению финансовой инклюзивности и ускорению интеграции банковского сектора Азербайджана в глобальную финансовую систему.

Ключевые слова: электронный банкинг, цифровая трансформация, конкурентоспособность, международная практика, финтех, открытый банкинг, финансовые инновации.

Turgut Mushfig Hasanli
2nd-year Master’s student, Finance (Banking)
Azerbaijan Cooperation University
E-mail: hasanliturgut7@gmail.com

Academic Supervisor: Doctor of Economics,
Professor Elnura Bunyat Mammadova
Azerbaijan Cooperation University
E-mail: mammadova-e@list.ru

Enhancing the competitiveness of electronic banking services in Azerbaijan and prospects for their development based on the application of ınternational practice

Summary

This article analyzes the current state of electronic banking services in Azerbaijan, their development dynamics, and the key factors influencing competitiveness. In the context of digital transformation, fintech innovations, open banking models, and customer-oriented service strategies, the main directions of international practice are examined, and their potential application in the national banking sector is assessed.

Within the study, the electronic banking experience of developed countries is comparatively analyzed, and priority directions are identified, including strengthening technological infrastructure, ensuring cybersecurity, enhancing digital literacy, and improving the regulatory and legal framework. At the same time, strategic approaches to strengthening the competitive environment and expanding innovative financial services are proposed.

Thus, the systematic and phased implementation of reforms based on international practice can contribute to improving the quality of electronic banking services, expanding financial inclusion, and accelerating the integration of Azerbaijan’s banking sector into the global financial system.

Key words: electronic banking, digital transformation, competitiveness, international practice, fintech, open banking, financial innovations.

UOT: 330.322.21, 338.242, 338.43

Murad Əli oğlu HACIYEV
doktorant, Aqrar Tədqiqatlar Mərkəzi
murad.haciyev.01@list.ru
https://doi.org/10.30546/4.71.730.02.2026.090

KƏND TƏSƏRRÜFATINA ÖZƏL İNVESTİSİYALARIN CƏLB EDİLMƏSİNİN STİMULLAŞDIRILMASI MEXANİZMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

Xülasə

Tədqiqatın məqsədi – Azərbaycan Respublikasının kənd təsərrüfatında əsas kapitala investisiya qoyuluşlarının stimullaşdırılması mexanizminin təkmilləşdirilməsi məsələlərinin araşdırılması və bu istiqamətdə zəruri dəyərləndirmələr aparılmasıdır.

Tədqiqatın metodologiyası – araşdırılan məsələyə sistemli yanaşma, dinamika sıralarının təhlili, stuktur təhlilləri, müqayisəli dəyərləndirmə.

Tədqiqatın tətbiqi əhəmiyyəti – kənd təsərrüfatına özəl investisiya resurslarının cəlbinin stimullaşdırılması mexanizmlərinin daha da təkmilləşdirilməsi ilə bağlı məsələlərə baxılmasında nəzərə alınması imkanları.

Tədqiqatın nəticələri – müasir şəraitdə Azərbaycan Respublikasında aqrar sahədə özəl investisiyaların dinamikası və strukturunda baş verən dəyişikliklər açıqlanmış və bu sahəyə investisiya cəlbinin stimullaşdırılmanın gücləndirilməsi imkanları dəyərləndirilmişdir.

Tədqiqatın orijinallığı və elmi yeniliyi – Azərbaycan iqtisadiyyatının aqrar sektorunda özəl investisiya qoyuluşlarının sistemli təhlili aparılmış və bu istiqamətdə müasir inkişaf tələbləri nəzərə alınmaqla stimullaşdırma mexanizmlərinin təkmilləşdirilməsi ilə bağlı mülahizələr irəli sürülmüşdür.

Açar sözlər: kənd təsərrüfatı, investisiya resursları, özəl investisiyalar, investisiyaların stimullaşdırılması, stimullaşdırma mexanizminin təkmilləşdirilməsi.

Giriş

Müasir şəraitdə kənd təsərrüfatı istehsalının dinamik inkişafının təmin olunması bu sahəyə investisiya qoyuluşlarının davamlı artırılması ilə bağlıdır. İqtisadiyyatın aqrar sektorunda əsas kapitala zəruri həcmlərdə investisiyaların yönlədilməsi əkinçilik və heyvandarlıq məhsulları istehsalının genişləndirilməsi ilə yanaşı, dayanıqlı inkişaf tələblərinin ödənilməsi məqsədilə yaşıl keçidin sürətləndirlməsinin, qlobal iqlim dəyişikliklərinə zərərəli təsirlərin yumşaldırmasının zəruri şərtinə çevrilir.

Kənd təsərrüfatının investisiya resurslarına olan tələbinin ödənilməsi dövlət və özəl sektora aid yatırılmların reallaşdırılması vasitəsilə həyata keçirilir. İnkişaf edən ölkələrdə, o cümlədən post-transformasiya iqtisadiyyatlarında aqrar sahənin inkişafı sahəsində problemlərin ardıcıl həlli baxımından özəl investisiyaların rolunun artırılması xüsusi əhəmiyyət daşıyır. Bu istiqamətdə Azərbaycan Respublikasının kənd təsərrüfatında əsaslı irəliləyişlər olmuşdur. Sahəyə ümumi investisiya qoyuluşlarında özəl sektorun payı sürətlə yüksəlmişdir. Bununla yanaşı, hələlik qeyri-dövlət subyektləri tərəfindən aqrar sektora yönəldilən investisiya resurslarının mütləq və nisbi həcminin bu sahədə inkişafın müasir tələblərinə uyğunlaşdırılmasına ehtiyac vardır. Bu problemin həlli isə kənd təsərrüfatında əsas kapitala yönəldilən özəl investisiyaların stimullaşdırılmasnı təmin edən effektiv mexanizmlərin formalaşdırılması ilə bağlıdır.

Müasir şəraitdə kənd təsərrüfatına özəl investisiyaların cəlb edilməsinin stimullaşdırılmasında əsas meyllər

İnvestisiyaların stimullaşdırılması aqrar sahənin tənzimlənməsi sisteminin tərkib hissəsi olmaqla, həmin sistemin formalaşması prinsiplərinə uyğun qurulur. Bununla əlaqədar, investisiyaların stimullaşdırılması mexanizmləri iqtisadiyyatların inkişaf səviyyəsindən asılı olaraq fərqli

cəhətlərə malik olur.

İnkişaf etmiş iqtisadiyyatlarda aqrar sahəyə investisiya qoyuluşlarının stimullaşdırılması uzun təkamül yolu keçməklə çoxistiqamətli və çoxhədəfli xarakter almışdır. Müasir şəraitdə inkişaf etmiş ölkələrin aqrar sahəyə investisiya qoyuluşları üzrə siyasətləri istehsalın resurs təminatının genişləndirilməsi və keyfiyyət baxımından yaxşılaşdırılmasına, habelə investisiyalar vasitəsilə struktur dəyişikliklərinin stimullaşdırılması, dəyər zənciri üzrə inkişafın dəstəklənməsi, dayanıqlı inkişaf, qlobal iqlim dəyişikliklərinin təsirlərinin yumşaldıması ilə bağlı məsələlərin həllinin sürətləndirilməsinə yönəldilir.

Qeyd edilən iqtisadiyyatlarda investisiya qoyuluşlarının stimullaşdırılması ilə aqrar istehsalın bütün sahələri əhatə olunur. Eyni zamanda, stimullaşdırma üstün olaraq aqrar sahəyə investisiya axınının artırılması vasitəsilə istehsalın genişləndirilməsi və rəqabətqabiliyyətliliyin yüksəldilməsi məqsədilə istehsal resurslarının (maşın, avadanlıq, məhsuldar kənd təsərrüfatı heyvanları, torpaq sahələri) əldə olunmasının dəstəklənməsinə yönəldilir.

Bununla yanaşı, investisiyaların stimullaşdırılması müvafiq məqsədli dövlət proqramları çərçivəsində müəyyən edilən inkişaf prioritetlərinin reallaşdırılmasında vasitə kimi istifadə edilir. Sözügedən prioritetlərə aqrar sahədə müəyyən sosial qrupların iqtisadi fəaliyyətinin genişləndirilməsi, konkret istehsal sahələrinin inkişafı, çətin şəraitli regionlarda aqrar fəaliyyətin həyata keçirilməsinin, kiçik sahibkarlıq subyektlərinin dəstəklənməsi aid edilir.

İnkişaf etmiş iqtisadiyyatlarda kənd təsərrüfatının dövlət tənzimlənməsi tədbirlərinin sahəyə investisiya qoyuluşlarının artırılması stimullarının zəiflədilməsinə təsirlərinin aradan qaldırılması və ya azaldılması həmin tədbirlərin bazar təhriflərini məhdudlaşdıran mexanizmlərinin yaradılması, rəqabətli bazarların formalaşdırılması yolu ilə reallaşdırılır. [4]

İnkişaf etmiş iqtisadiyyatlarda aqrar sahənin dayanıqlı inkişaf tələblərinə uyğun inkişafının dəstəklənməsində investisiyaların vasitə kimi istifadə edilməsi genişlənir. Bu istiqamətdə son dövrlərdə Avropa İttifaqına daxil olan ölkələrdə fermerlər tərəfindən kimyəvi maddələrin istifadəsinin azaldılmasına yönəldilən təsərrüfatdaxili investisiya yatırımlarına daha güclü kömək göstərilməsi və ya bunun kənd yerlərinin inkişafı proqramları (RDP) çərçivəsində investisiyalara köməyin şərti kimi qəbul edilməsi praktikaları tətbiq olunur. [6]

ABŞ-də torpağın sıfır işlənilməsi (“no-till”) sisteminin fermerlər tərəfindən tətbiqi ilə bağlı investisiya xərclərinin maliyyələşdirilməsinə kömək tədbirləri həyata keçirilir. [8]

Litvada torpağın sıfır işlənilməsi sisteminin tətbiqinə investisiyaların maliyyələşdirilməsinə kömək bununla bağlı yaradılmış xüsusi fond vasitəsilə həyata keçirilir. [7]

İnkişaf etmiş ölklərdə qlobal iqlim dəyişikliklərinin mənfi təsirlərinin yumşaldılmasında aqrar sahəyə investisiya qoyuluşlarından vasitə kimi istifadə olunur. Belə ki, Avropa İttifaqında fermer təsərrüfatları tərəfindən karbon emissiyasının azaldılması məqsədilə enerji istehlakının azaldılmasına yönəldilən təsərrüfatdaxili investisiya yatırımlarına daha güclü kömək göstərilməsi üzrə tədbirlər tətbiq olunur, o cümlədən dövlət təminatı ilə güzəştli investisiya kreditləri verilir. [6]

Göstərilən istiqamətdə ABŞ-da fermerlərin bərpa olunan enerjinin istehsalı sistemlərinin, həmçinin belə enerjidən istifadənin səmərəliliyini yüksəldən sistemlərin alınmasının güzəştli kreditləşdirilməsi proqramı reallaşdırılır.

Qeyd edilənlərlə yanaşı, ABŞ-də iqlimə uyğun kənd təsərrüfatına keçidin kapitallaşması üçün xüsusi mexanizmlər yaradılır, o cümlədən vəsaitin maliyyə dəyər zəncirindən kənd təsərrüfatı dəyər zəncirinə ötürülməsi məqsədilə müvafiqyönümlü layihələrin reallaşdırılması üçün “yaşıl səhmlər” buraxılışı və yerləşdirilməsi təmin olunur. [8]

Suvarma əkinçiliyinin üstünlük təşkil etdiyi Avropa ölkələrində irriqasiya sistemlərinin modernləşdirilməsinə investisiya qoyuluşları aqrar sahədə investisiya siyasətinin prioritet istiqamətləri kimi müəyyən edilir. [6]

İnkişaf etməkdə olan iqtisadiyyatlarda kənd təsərrüfatı üzrə investisiyaların stimullaşdırılması inkişaf etmiş ölkələrlə müqayisədə müəyyən məhduduiyyətlərə malikdir. Həmin iqtisadiyyatlarda ümumi iqtisadi imkanlarla bağlı stimullaşdırma tədbirlərinin həyata keçirilməsinə yönəldilən


maliyyə resursu bazası zəifdir. Müxtəlif istiqamətlər üzrə özəl investisiyaların cəlb edilməsinə stimulların yaradılması məqsədilə dövlət tərəfindən ayrılan maliyyə vəsaitlərinin mütləq və nisbi kəmiyyətləri kifayət qədər yüksək olmur ki, bu da stimullaşdırma tədbirlərinin əhatə dairəsinin və miqyaslarının məhdudlaşdırılması ilə nəticələnir.

İnkişaf etməkdə olan ölkələrdə istehsal infrastrukturunun inkişaf etdirilməsi ilə özəl sektorun əsaslı vəsait qoyuluşuna stimul yaradılması və fermerlərin texnika və tenologiyalarla təminatının dəstəklənməsi tədbirlərinin tətbiqi üstünlük təşkil edir.

Azərbaycanın kənd təsərrüfatına özəl investisiyaların dinamikası

Azərbaycanın kənd təsərrüfatına özəl sektor tərəfindən əsas kapitala investisiya qoyuluşları iqtisadiyyatın bu sektoruna ümumi investisiya qoyuluşlarında önəmli yer tutur. 2019-2023-cü illərin orta illik göstəricilərinə uyğun olaraq, qeyri –dövlət investisiyalarının kənd təsərrüfatına investisiya qoyuluşlarında payı 48.8 % təşkil etmişdir. Bu göstərici 2005-2009-cu illərin müvafiq göstəricisi ilə müqayisədə 45.8 faiz bəndi yüksəkdir.

Ölkəmizdə həyata keçirilmiş əsaslı islahatlardan sonra kənd təsərrüfatının inkişafına prioritetlik verilmişdir. Sahəyə geniş dövlət köməyi sistemi qurulmuşdur. Bu, öz növbəsində kənd təsərrüfatı istehsalı sferasına özəl investisiya axınını gücləndirmişdir. (Diaqram 1)



Diaqram 1. 2005-2023-cü illərdə Azərbaycanın kənd təsərrüfatında əsas kapitala yönəldilən özəl (qeyri-dövlət) investisiya qoyuluşları (mln manat)

Mənbə: *Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.*

